Tobias: Guten Tag, Frau Meier. Ich habe gehört, es gibt ein neues Projekt zur Förderung des Tourismus in unserer Stadt.
Frau Meier: Ja, das stimmt, Tobias. Wir planen einen kurzen Imagefilm über unsere Stadt, und in diesem Film werden die wichtigsten Sehenswürdigkeiten vorgestellt. Ziel ist es, mehr Besucher zu gewinnen, besonders im Sommer.
Tobias: Das klingt sehr interessant. Welche Orte werden im Film gezeigt?
Frau Meier: Wir möchten das historische Stadtzentrum mit dem alten Rathaus zeigen, den Schlosspark, das Geschichtsmuseum der Stadt und die kleinen Läden, Cafés und Kunstgalerien.
Tobias: Ich könnte einige Aufnahmen mit meiner Drohne machen, um die Stadt aus einer neuen Perspektive zu zeigen. Wäre das erlaubt?
Frau Meier: Ja, das wäre großartig! Wir müssen dafür nur eine Erlaubnis beim Ordnungsamt bekommen. Ich finde es auch gut, wenn die Menschen über die Stadt etwas sagen. Zum Beispiel ein Cafébesitzer, eine Museumsführerin oder Touristen, die schon einmal hier waren.
Tobias: Sehr gute Idee. Das macht den Film glaubwürdiger. Ich schreibe in den nächsten Tagen ein Konzept und ein Drehbuch. Ich denke, wir können in zwei Wochen mit dem Dreh beginnen.
Frau Meier: Perfekt. Wir möchten den Film nämlich bis Mitte Juli fertig haben, damit er pünktlich zum Stadtfest gezeigt werden kann. Auch auf YouTube, Facebook und Instagram soll er veröffentlicht werden.
Tobias: Das ist eine tolle Möglichkeit, moderne Medien sinnvoll einzusetzen. Ich freue mich sehr, bei diesem Projekt mitmachen zu dürfen. Es ist auch eine gute praktische Erfahrung für mein Studium.
Frau Meier: Wir freuen uns ebenfalls. Ihre technischen Fähigkeiten und Ihre Kreativität sind eine große Bereicherung für unser Team. Ich bin gespannt auf das Ergebnis. Viel Erfolg bei der Vorbereitung!

A variantı 1 saylı test tapşırığı
B variantı 1 saylı test tapşırığı
C variantı 1 saylı test tapşırığı
D variantı 1 saylı test tapşırığı
Ergänzen Sie den Satz dem Dialog entsprechend.
Das Ziel des neuen Projekts ist es, … .
A) den Park von oben mit einer Drohne aufzunehmen
B) durch einen kurzen Film mehr Gäste zu gewinnen
C) nur die Cafés und Geschäfte bekannter zu machen
D) einen langen Dokumentarfilm über die ganze Region zu drehen
E) die Stadt nur für die Einwohner schöner zu machen
İzah: *Bu test tapşırığında verilmiş cümləni dialoqa əsasən düzgün tamamlamaq tələb olunur. Dialoqdan aydın olur ki, yeni proyektin məqsədi qısametrajlı filmlə daha çox turist cəlb etməkdir. Tapşırıqda verilmiş* ***" Das Ziel des neuen Projekts ist es,*** *… ." (yeni proyektin məqsədi odur ki, … .) cümləsini "****durch einen kurzen Film mehr Gäste zu gewinnen****" (qısametrajlı filmlə daha çox qonaq qazanmaq) qeyd olunan bənd mətnə əsasən* ***doğru*** *tamamlayır.*

A variantı 2 saylı test tapşırığı
B variantı 2 saylı test tapşırığı
C variantı 2 saylı test tapşırığı
D variantı 2 saylı test tapşırığı
Ergänzen Sie den Satz dem Dialog entsprechend.
Tobias darf mit Drohne filmen, wenn … .
A) man dafür eine offizielle Erlaubnis bekommt
B) er dafür praktische Erfahrung hat
C) er sie nur für private Aufnahmen nutzt
D) man sie nur abends benutzt
E) er sie im Park benutzen wird
İzah: *Bu test tapşırığında verilmiş cümləni mətnə əsasən düzgün tamamlamaq tələb olunur. Dialoqdan aydın olur ki, Tobiasın şəhərdə dronla çəkiliş etməsi üçün şəhər iltizam idarəsindən icazə alınmalıdır. Tapşırıqda verilmiş* ***"Tobias darf mit Drohne filmen, wenn*** *… ." (Tobias dronla film çəkə bilər, … .) cümləsini "****man dafür eine offizielle Erlaubnis bekommt****" (əgər bunun üçün rəsmi icazə alınarsa) qeyd olunan bənd mətnə əsasən* ***doğru*** *tamamlayır.*

A variantı 3 saylı test tapşırığı
B variantı 3 saylı test tapşırığı
C variantı 3 saylı test tapşırığı
D variantı 3 saylı test tapşırığı
Wählen Sie die richtige Aussage laut Dialog aus.
A) Im Film werden nur Straßen gezeigt.
B) Tobias wird das Konzept des Films schreiben.
C) Frau Meier will keinen Film machen.
D) Der Film soll erst nächstes Jahr fertig sein.
E) Tobias möchte für den Film keine Medien nutzen.
İzah: *Bu tapşırıqda verilmiş fikirlər arasından dialoqa əsasən doğru fikri seçmək tələb olunur. Dialoqdan aydın olur ki, Tobias film çəkmək üçün növbəti günlərdə filmin konsepsiyasını yazacaq. Beləliklə, „**Tobias wird das Konzept des Films schreiben**" (Tobias filmin konsepsiyasını yazacaq) fikrinin qeyd olunduğu bənd tapşırığın **doğru cavabıdır**.*

A variantı 4 saylı test tapşırığı
B variantı 4 saylı test tapşırığı
C variantı 4 saylı test tapşırığı
D variantı 4 saylı test tapşırığı
Wählen Sie die richtige Antwort dem Text entsprechend aus.
Warum freut sich Tobias auf die Mitarbeit bei diesem Projekt?
A) Weil er keine Technik dafür benutzt.
B) Weil es ein gutes Praktikum für sein Studium ist.
C) Weil er damit mehr Geld verdienen kann.
D) Weil er damit in der Stadt bekannt wird.
E) Weil er später im Kino arbeiten wird.
İzah: *Bu test tapşırığında dialoqa əsasən verilmiş sualın doğru cavabının müəyyən edilməsi tələb olunur. Sualda Tobiasın bu proyektdə əməkdaşlığa nəyə görə sevindiyi soruşulur. Dialoqda da Tobias bu haqda bildirir ki, bu proyektdə birgə işləmək onun təhsili üçün yaxşı təcrübədir və o, buna görə sevinir. Beləliklə, tapşırıqda verilmiş **" Warum freut sich Tobias auf die Mitarbeit bei diesem Projekt?"** sualının **doğru cavabı "Weil es ein gutes Praktikum für sein Studium ist"** (təhsili üçün yaxşı bir təcrübə olacaq) fikrinin qeyd olunduğu bənddir.*

A variantı 5 saylı test tapşırığı
B variantı 5 saylı test tapşırığı
C variantı 5 saylı test tapşırığı
D variantı 5 saylı test tapşırığı
Welche Frage beantwortet der Dialog?
A) Wer plant die Musik für das Stadtfest?
B) Wie hat Tobias die Erlaubnis erhalten?
C) Wie viele Touristen besuchen das Stadtfest?
D) Was wird im Imagefilm besonders gezeigt?
E) Welche Rolle spielt das Museum für die Stadt?
İzah: *Bu test tapşırığında verilmiş suallardan hansının mətndə cavablandırıldığı soruşulur. Dialoqda danışılır ki, xanım Mayer şəhərin tanıdılması üçün çəkiləcək təqdimat filmində şəhərin tarixi, görməli yerləri, kiçik mağazalar, kafelər və incəsənət qaleriyalarının göstəriləcəyini bildirir. Buna əsasən də **"Was wird im Imagefilm besonders gezeigt?"** (Təqdimat filmində xüsusilə nə göstəriləcək?) sualının **doğru cavabını** mətnə əsasən müəyyən etmək olar.*

Lesen Sie den Text und antworten Sie auf die Fragen 6 – 10.

In vielen deutschen Städten ist die Luft schlecht, weil es zu viele Autos gibt. Es führt zur Verschmutzung der Luft in Deutschland. Um das zu verringern, verlangt die EU, bestimmte Maßnahmen zu ergreifen. Deshalb will die Regierung den Nahverkehr kostenlos machen. Man glaubt, dass man dadurch die Luftverschmutzung vermindern kann. Aber wer soll die Kosten des kostenlosen Nahverkehrs übernehmen?

Deutschland hat ein großes Problem: Die Regierung denkt, dass die EU uns Geldstrafen geben wird, wenn wir nichts ändern. Um das zu verhindern, will die Regierung in fünf deutschen Städten Busse und Bahnen kostenlos machen – zumindest für eine bestimmte Zeit. Die Regierung möchte sehen, ob dadurch weniger Menschen Autos nutzen und ob sich die Luft verbessert.

Zuerst soll der Nahverkehr in Bonn, Essen, Reutlingen, Mannheim und Herrenberg kostenlos werden. Viele Verantwortliche in diesen Städten finden die Idee gut, aber sie haben große Sorgen wegen der Kosten. Wolfgang Löffler, der Leiter des Presseamtes in Reutlingen, sagt: „Wir wissen nicht, wer die Kosten übernimmt oder wie das genau umgesetzt werden soll. Klar ist aber, dass die Stadt das nicht bezahlen kann."

In Deutschland wird der öffentliche Nahverkehr durch Ticketverkäufe finanziert. Das wäre ein Verlust für eine Stadt wie Essen von 100 Millionen Euro jährlich. Außerdem brauchen die Städte dann mehr Busse und Bahnen und auch mehr Mitarbeiter für den Betrieb. Thomas Sprißler, der Oberbürgermeister von Herrenberg, ist dafür, dass der Bund die Kosten übernehmen soll, weil „wer bestellt, der bezahlt."

Es ist nicht sicher, ob man durch dieses teure Experiment die Luftverschmutzung wirklich stark senken kann. Einige Experten glauben, dass die meisten Menschen, die die kostenlosen Fahrten nutzen, sowieso nicht viel Auto fahren. Deshalb sollte man auch andere Ideen prüfen, wie Tempolimits, mehr Elektroautos oder strenge Fahrverbote.

A variantı 6 saylı test tapşırığı
B variantı 6 saylı test tapşırığı
C variantı 6 saylı test tapşırığı
D variantı 6 saylı test tapşırığı

Sind die folgenden Aussagen dem Text entsprechend richtig oder falsch? Wählen Sie.

6.1. Die Regierung hat vor, den Nahverkehr in ganz Deutschland kostenlos zu machen.

A) Richtig B) Falsch

İzah: *Bu fikirdə bildirilir ki, hakimiyyət istəyir ki, yaxın məsafəli nəqliyyatı bütün Almaniyada pulsuz etsin. Mətndə isə yaxın məsafəli nəqliyyatın bütün Almaniya üzrə deyil, yalnız Almaniyanın beş şəhərində pulsuz ediləcəyi təklif edilir. Beləliklə də verilmiş bu fikir mətnə əsasən* ***yanlışdır****.*

6.2. Der Nahverkehr war früher in einigen Städten von Deutschland kostenfrei.

A) Richtig B) Falsch

İzah: *Bu fikirdə qeyd olunur ki, „Əvvəllər Almaniyanın bir neçə şəhərində yaxın məsafəli nəqliyyat pulsuz olub". Mətndə isə bunun əksinə olaraq, qeyd olunur ki, „yaxın məsafəli nəqliyyat Almaniyanın bir neçə şəhərində pulsuz olması təklif edilir." Yəni bunun gələcəkdə yerinə yetiriləcəyi nəzərdə tutulur. Buna əsasən də verilmiş fikir* ***yanlışdır***

6.3. Wolfgang Löffler denkt, dass die Stadt Reutlingen die ganzen Kosten bezahlen soll.

A) Richtig B) Falsch

İzah: *Bu fikirdə qeyd olunur ki, „Löfler düşünür ki, Roytlinqen şəhəri bütün xərcləri ödəməlidir." Mətndə isə bunun əksinə olaraq, qeyd olunur ki, „Löfler deyir ki, xərcləri kimin öz üzərinə götürəcəyini biz bilmirik." Yəni xərclərin kim tərəfindən ödənilə biləcəyi məlum deyil. Buna əsasən də verilmiş fikir* ***yanlışdır****.*

6.4. Laut Thomas Sprißler soll der Bund die Kosten für den kostenlosen Nahverkehr übernehmen.

A) Richtig B) Falsch

İzah: *Bu fikirdə bildirilir ki, Şprislerə görə Federal dövlət pulsuz yaxın məsafəli nəqliyyatın xərclərini öz üzərinə götürməlidir. Mətndə də həqiqətən Sprislerin eyni fikri təsdiq edilir. Buna əsasən verilmiş fikir* ***doğrudur****.*

A variantı 7 saylı test tapşırığı
B variantı 7 saylı test tapşırığı
C variantı 8 saylı test tapşırığı
D variantı 8 saylı test tapşırığı

Wählen Sie die richtige Antwort dem Text entsprechend.

Wozu will die Regierung den Nahverkehr kostenlos machen?

A) Um die Kosten der Europäischen Union zu verringern
B) Um die Luftverschmutzung in Deutschland zu verringern
C) Um die Kosten für Busse zu reduzieren
D) Um den Ticketverkauf für den Fernverkehr zu steigern
E) Um mehr Menschen dazu zu bringen, Autos zu verkaufen

İzah: *Bu tapşırıqda mətnə əsasən verilmiş sualın doğru cavabını müəyyən etmək tələb olunur. Bu sualda hakimiyyətin nə məqsədlə yaxın məsafəli nəqliyyatı pulsuz etmək istədiyi soruşulur. Mətnin 1-ci abzasından aydın olur ki, Almaniyanın bir çox şəhərlərində avtomobillərin çox olması səbəbindən hava çirkələnir, bu məqsədlə Avropa Birliyi Almaniya höküməti qarşısında tələb qoyur ki, hava çirkənlənməsinin azaldılması üçün müəyyən tədbirlər görsün. Mətnə əsasən tapşırığın* ***doğru cavabı „Um die Luftverschmutzung in Deutschland zu verringern"*** *fikrinin qeyd olunduğu bənddir.*

A variantı 8 saylı test tapşırığı
B variantı 9 saylı test tapşırığı
C variantı 9 saylı test tapşırığı
D variantı 9 saylı test tapşırığı
Welche der folgenden Fragen wird im Text beantwortet?
A) Wie wird der öffentliche Nahverkehr in Deutschland finanziert?
B) Wann wurden die ersten kostenlosen Busse in Deutschland benutzt?
C) Bis wann sollen die Busse und Bahnen kostenlos sein?
D) Warum konnte die Stadt den Nahverkehr nicht bezahlen?
E) Warum gibt es zu viele Autos in deutschen Städten?
İzah: *Bu test tapşırığında verilmiş suallardan hansının mətndə cavablandırıldığı soruşulur. Mətndən gösətirilir ki, Almaniyada yaxın məsafəli ictimai nəqliyyat bilet satışı ilə maliyyələşir. Buna əsasən də* ***„Wie wird der öffentliche Nahverkehr in Deutschland finanziert?“*** *sualının* ***doğru cavabını*** *mətnə əsasən müəyyən etmək olur.*

A variantı 9 saylı test tapşırığı
B variantı 8 saylı test tapşırığı
C variantı 7 saylı test tapşırığı
D variantı 7 saylı test tapşırığı
Ergänzen Sie den Satz dem Text entsprechend.
Der Leiter des Presseamtes in Reutlingen Wolfgang Löffler sagt, dass … .
A) es nicht klar ist, wer die Kosten übernehmen wird
B) die Stadt die Idee des kostenlosen Nahverkehrs ablehnen wird
C) die Stadt bereits die Umsetzung des Projekts begonnen hat
D) die Stadt keine zusätzlichen Busse und Bahnen benötigt
E) es klar ist, dass die Regierung die Kosten bezahlen wird
İzah: *Bu test tapşırığında mətnə əsasən cümləni tamamlamaq tələb olunur. „Löfler deyir ki, xərclərin kimin öz üzərinə götürəcəyini biz hələ bilmirik“. Yəni xərclərin kim tərəfindən ödənilə biləcəyi məlum deyil. Bununla əlaqədar olaraq, tapşırığın* ***doğru cavabı „es nicht klar ist, wer die Kosten übernehmen wird“*** *fikrinin qeyd olunduğu bənddir.*

A variantı 10 saylı test tapşırığı
B variantı 10 saylı test tapşırığı
C variantı 10 saylı test tapşırığı
D variantı 10 saylı test tapşırığı
Welche Aussagen sind dem Text entsprechend richtig?
1. Die Regierung plant, den Nahverkehr in fünf deutschen Städten kostenlos zu machen.
2. Alle Städte in Deutschland können den Nahverkehr kostenlos anbieten.
3. In Mannheim wurden die Busse früher ohne Tickets benutzt.
4. Die Städte brauchen viele Mitarbeiter für den kostenlosen Nahverkehr.
5. Experten sind sicher, dass die Luftverschmutzung keine Probleme verursacht.

İzah: *Açıq-seçim tipli bu test tapşırığında mətnə əsasən doğru fikirlərin seçilməsi tələb olunur. Bu tapşırıqda yalnız iki fikir* ***(1, 4)*** *mətnə əsasən doğrudur. Mətndən də aydın olur ki, bu 2 fikir „1.* ***Die Regierung plant, den Nahverkehr in fünf deutschen Städten kostenlos zu machen“*** *(Hakimiyyət Almaniyanın beş şəhərində yaxın məsafəli nəqliyyatı pulsuz etməyi planlaşdırır) və „3.* ***Die Städte brauchen viele Mitarbeiter für den kostenlosen Nahverkehr“*** *(yaxın məsafəli nəqliyyat üçün şəhərlərə çoxlu işçi lazımdır) mətnə əsasən* ***doğrudur.***

Lesen Sie den Text und antworten Sie auf die Fragen 11 – 15.

I. Wir kaufen immer mehr Kleidung, und sie ist oft sehr günstig. Die Produktion von Kleidung nimmt weltweit stark zu. Das ist schlecht für die Umwelt, und wir müssen dringend etwas ändern.

II. … Es ist schneller und einfacher, neue Kleidung zu kaufen. Zwischen 2003 und 2018 ist der weltweite Verkauf von Kleidung auf das Doppelte gestiegen. Im Durchschnitt behalten wir ein Kleidungsstück nicht einmal ein Jahr. Alte Kleidung wird dann oft in andere Länder, wie zum Beispiel nach Afrika oder Asien, geschickt. Doch einige der armen Länder wollen sie jetzt nicht mehr annehmen, weil es einfach zu viel ist.

III. Der Grund für die großen Mengen ist vor allem der niedrige Preis. Aber er beeinflußt die Umwelt schlecht. Die Produktion von Kleidung verursacht mehr als eine Milliarde Tonnen CO2 pro Jahr. Das ist mehr als CO2 der allen internationalen Flüge und Schiffe zusammen. Dazu kommt die Verschmutzung der Umwelt durch gefährliche Chemikalien, die bei der Herstellung von Kleidung verwendet werden.

IV. Kirsten Brodde von Greenpeace sagt, dass Firmen mehr Druck bekommen müssen, damit sie umweltfreundlicher und nachhaltiger produzieren. Sie hilft Firmen dabei, Kleidung ohne gefährliche Chemikalien herzustellen. Schon 79 Firmen haben versprochen, auf ungefährliche Chemikalien umzusteigen.

V. Brodde sagt auch, dass die Produktion von Kleidung nachhaltiger werden und die Umwelt schützen muss. Materialien sollten so lange wie möglich wiederverwendet werden, um Ressourcen zu sparen. Auch wir als Verbraucher können helfen. Brodde sagt: „Wir sollten weniger Kleidung kaufen und die Sachen, die wir schon haben, länger tragen. Wir müssen wieder lernen, Dinge zu reparieren, anstatt sie wegzuwerfen." Wenn sich nichts ändert, wird die Produktion von Kleidung bis zum Jahr 2050 viel mehr sein als heute.

A variantı 11 saylı test tapşırığı
B variantı 11 saylı test tapşırığı
C variantı 11 saylı test tapşırığı
D variantı 11 saylı test tapşırığı

Sind die folgenden Aussagen dem Text entsprechend richtig oder falsch? Wählen Sie.

11.1. Die Herstellung von Kleidung wird bis 2050 weniger sein als heute.

A) Richtig B) Falsch

İzah: *Tapşırıqda bildirilir ki, geyim istehsalı 2050-ci ilə qədər bugünkindən daha az olacaq. Mətndə isə bunun əksi qeyd olunur: geyim istehsalı 2050-ci ilə qədər bugünkindən daha çox olacaq. Buna əsasən də verilmiş fikir* ***yanlışdır.***

11.2. Alte Kleidung wird oft nach Afrika oder Asien geschickt.

A) Richtig B) Falsch

İzah: *Bu fikirdə bildirilir ki, köhnə geyimlər tez-tez Afrika və Asiyaya göndərilir. Mətndə də göstərilir ki, həqiqətən köhnə geyimlər çox vaxt bəzi ölkələrə göndərilir, məs. Afrika və Asiyadakı. Buna görə də verilmiş bu fikir mətnə əsasən* ***doğrudur.***

11.3. Die Herstellung von Kleidung führt mehr zu CO2.

A) Richtig B) Falsch

İzah: *Bu fikirdə bildirilir ki, geyim istehsalı daha çox CO2-in yaranmasına gətirib çıxarır. Mətndə də göstərilir ki, geyim istehsalı ildə bir milyard tondan çox CO2-nin yaranmasına səbəb olur. Buna görə də verilmiş bu fikir mətnə əsasən* ***doğrudur****.*

11.4. Der Kleidungsverkauf auf der ganzen Welt hat sich zwischen 2003 und 2018 verdoppelt.

A) Richtig B) Falsch

İzah: *Tapşırıqda bildirilir ki, bütün dünyada geyim satışı 2003 və 2018-ci illər arasında ikiqat artıb. Mətndə də bu fikir təsdiqlənir. Buna görə də verilmiş bu fikir mətnə əsasən* ***doğrudur.***

A variantı 12 saylı test tapşırığı
B variantı 12 saylı test tapşırığı
C variantı 14 saylı test tapşırığı
D variantı 14 saylı test tapşırığı

Mit welchem Satz kann der 2. Absatz des Textes beginnen?

A) Die meisten Kleidungsstücke werden nach einem Jahr wiederhergestellt.
B) Der Preis von Kleidung hat sich in den letzten Jahren stark erhöht.
C) Viele Menschen reparieren heute ihre Kleidung nicht mehr.
D) Chemikalien werden bei der Herstellung von Kleidung verwendet.
E) Einige Länder wollen immer noch alte Kleidung annehmen.

İzah: *Verilmiş tapşırığa əsasən müəyyən etmək lazımdır ki, mətndəki 2-ci abzas verilmiş fikirlərdən hansı ilə başlaya bilər. Mətnin 2-ci abzasında "Viele Menschen reparieren heute ihre Kleidung nicht mehr." 2-ci abzasda qeyd olunur ki, yeni geyim almaq daha tez və sadədir. Buna istinad etməklə qeyd edə bilərik ki, mətnin 2-ci abzasına uyğun gələn* ***doğru cavab*** *„****Viele Menschen reparieren heute ihre Kleidung nicht mehr****" fikrinin qeyd olunduğu bənddir.*

A variantı 13 saylı test tapşırığı
B variantı 14 saylı test tapşırığı
C variantı 12 saylı test tapşırığı
D variantı 12 saylı test tapşırığı

Warum sollten die Materialien wiederverwendet werden?
A) Damit man die Welt verschmutzen kann.
B) Damit man viele Dinge reparieren kann.
C) Damit man die Ressourcen sparen kann.
D) Damit man mehr Kleidung kaufen kann.
E) Damit man neue Kleidung kaufen kann.

İzah: *Bu tapşırıqda mətnə əsasən verilmiş sualın doğru cavabını müəyyən etmək tələb olunur. Bu sualda materialların nəyə görə yenidən istifadə edilməsi soruşulur. Brodde qeyd edir ki, resurslara qənaət etmək məqsədi ilə materiallar mümkün qədər yenidən istifadə edilməlidir. Buna əsasən də tapşırığın* ***doğru cavabı „Damit man die Ressourcen sparen kann“*** *fikrinin qeyd olunduğu bənddir.*

A variantı 14 saylı test tapşırığı
B variantı 13 saylı test tapşırığı
C variantı 13 saylı test tapşırığı
D variantı 13 saylı test tapşırığı

Ergänzen Sie den Satz dem Text entsprechend.
Viele Menschen kaufen neue Kleidung, weil … .
A) sie ihre Qualität höher finden
B) man die alte Kleidung teurer repariert
C) alte Sachen ungesund sind
D) sie gerne dafür Geld ausgeben mögen
E) sie es einfacher finden

İzah: *Bu test tapşırığında mətnə əsasən cümləni tamamlamaq tələb olunur. Mətni oxuyarkən məlum olur ki, insanlar köhnə paltarları daha geymirlər. Yeni geyim almaq daha asan və tez başa gəlir. Bununla əlaqədar olaraq, tapşırığın* ***doğru cavabı „sie es einfacher finden“*** *fikrinin qeyd olunduğu bənddir.*

A variantı 15 saylı test tapşırığı
B variantı 15 saylı test tapşırığı
C variantı 15 saylı test tapşırığı
D variantı 15 saylı test tapşırığı

Welche Aussagen sind dem Text entsprechend richtig?
1. Viele Menschen mögen alte Kleidung kaufen.
2. Statt alte Dinge wegzuwerfen, soll man sie reparieren.
3. Die Produktion von Kleidung verschmutzt die Umwelt.
4. Die Firma Greenpeace produziert Kleidung ohne gefährliche Chemikalien.
5. Nach Brodde soll man die alten Sachen nicht länger tragen.

İzah: *Açıq tipli bu test tapşırığında mətnə əsasən doğru fikirlərin seçilməsi tələb olunur. Bu tapşırıqda yalnız iki fikir (**2, 3**) mətnə əsasən doğrudur. Mətndən də aydın olur ki, məhz bu 2 fikir „2.* ***Statt alte Dinge wegzuwerfen, soll man sie reparieren****“ (köhnə şeyləri atmaq əvəzinə onları təmir etmək lazımdır) və „3.* ***Die Produktion von Kleidung verschmutzt die Umwelt****“ (geyim istehsalı ətraf mühiti çirkləndir) mətnə əsasən* ***doğrudur****.*

A variantı 16 saylı test tapşırığı
B variantı 19 saylı test tapşırığı
C variantı 18 saylı test tapşırığı
D variantı 19 saylı test tapşırığı

Wählen Sie die passenden Konjunktionen aus.
Der Lehrer fragt, … der Schüler mit seiner Aufgabe schon fertig ist.
… das Wetter schlecht war, flog das Flugzeug weiter.
1. und
2. weil
3. ob
4. denn
5. obwohl

A) 1, 2 B) 3, 5 C) 1, 4 D) 2, 3 E) 4, 5

İzah: *Bu test tapşırığında verilmiş cümlələrə uyğun gələn düzgün bağlayıcıların seçilməsi tələb olunur. 1-ci cümlə sual tərkibli tamamlıq budaq cümləsi olduğu üçün fikri dəqiqləşdirmək məqsədi daşıdığından „***ob****“, 2-ci cümlə isə güzəşt budaq cümləsi olduğuna görə „***obwohl****“, yəni „havanın pis olmasına baxmayaraq, təyyarə uçuşa davam etdi“. Beləliklə, tapşırığın* ***doğru cavabı „3, 5“*** *qeyd olunan bənddir.*

A variantı 17 saylı test tapşırığı
B variantı 17 saylı test tapşırığı
C variantı 19 saylı test tapşırığı
D variantı 16 saylı test tapşırığı
Welcher Satz steht im Passiv?
A) In diesem Sommer werde ich aufs Land fahren.
B) Die Tage werden länger, die Nächte kürzer.
C) Einige Schüler unserer Klasse möchten Juristen werden.
D) Der Schüler wird an der Universität studieren.
E) Die Gäste aus Berlin werden mit herzlichen Grüßen empfangen.
İzah: *Bu test tapşırığında verilmiş cümlələrdən hansının məchul növdə işləndiyi soruşulur. Məchul növün indiki zaman forması „**werden+Partizip II (feili sifət)**" qrammatik qaydası ilə düzəlir. "**werden**" köməkçi feili cümlədə 2-ci yerdə, feilin **Partizip II** forması isə cümlənin sonunda işlənir. Qeyd olunan qrammatik qaydaya əsasən tapşırığın doğru cavabı „Die Gäste aus Berlin **werden** mit herzlichen Grüßen **empfangen**" cümləsinin qeyd olunduğu bəndir.*

A variantı 18 saylı test tapşırığı
B variantı 20 saylı test tapşırığı
C variantı 16 saylı test tapşırığı
D variantı 20 saylı test tapşırığı
Welche Variante bildet einen Dialog.
1. Hallo, Sandra! Kannst du heute Abend mit mir ins Theater gehen?
2. Morgen Abend habe ich nichts vor. Ich komme um sieben Uhr zu dir. Bis bald!
3. Bis morgen!
4. Und morgen Abend? Vielleicht gehen wir morgen Abend ins Kino? Im Kino läuft ein neuer Film.
5. Hi Paul, nein. Heute Abend geht es leider nicht. Ich habe viel zu tun.
A) 1, 5, 4, 2, 3 B) 3, 4, 5, 1, 2
C) 5, 2, 3, 1, 4 D) 1, 2, 4, 5, 3
E) 1, 5, 2, 3, 4
İzah: *Bu test tapşırığında verilmiş fikirlər əsasında dialoq qurmaq tələb olunur. Test tapşırığında Paul Sandranı əvvəlcə teatra dəvət edir, amma Sandranın həmin gün vaxtı olmadığı üçün onu kinoya dəvət edir. Bu məntiqi ardıcıllığa uyğun olaraq tapşırığın **doğru cavabı** "**1, 5, 4, 2, 3**" qeyd olunan bənddir.*

A variantı 19 saylı test tapşırığı
B variantı 18 saylı test tapşırığı
C variantı 17 saylı test tapşırığı
D variantı 17 saylı test tapşırığı
Wählen Sie die entsprechende Variante aus.
Die Jungen aus vielen Staaten nehmen ... dem Symposium in Baku teil.
A) in B) mit C) vor D) an E) für
İzah: *Bu test tapşırığında feilin idarə əlaqəsinə uyğun olaraq düzgün sözönünü təyin etmək tələb olunur. Məlumdur ki, „teilnehmen" feili **an** sözönü ilə işlənir və ismin Dativ (yönlük) halını tələb edir. Buna əsasən **„an"** qeyd olunan bənd tapşırığın **doğru cavabıdır**.*

A variantı 20 saylı test tapşırığı
B variantı 16 saylı test tapşırığı
C variantı 20 saylı test tapşırığı
D variantı 18 saylı test tapşırığı
Wählen Sie das Synonym zum unterstrichenen Wort aus.
Sie interessierte sich für Mode, deshalb suchte sie sich <u>einen Job</u> in einer Boutique.
A) eine Arbeit B) eine Karriere
C) eine Erfahrung D) eine Chance
E) eine Kette
İzah: *Bu test tapşırığında altından xətt çəkilmiş ismə uyğun gələn sinonimin seçilməsi tələb olunur. Məlumdur ki, **„Job"** isminin sinonimi **„Arbeit"** sözüdür. Beləliklə, **„eine Arbeit"** qeyd olunan bənd tapşırığın **doğru cavabıdır**.*

İnformatika üzrə bilikləri yoxlayan test tapşırıqları

A variantı 21 saylı test tapşırığı
B variantı 34 saylı test tapşırığı
C variantı 36 saylı test tapşırığı
D variantı 25 saylı test tapşırığı

Elektron cədvəl fraqmenti verilmişdir (Excel 2019).

	AA	AB	AC
7	10	14	=(AA8+AA9)/3
8	18	20	=IF(AA8>AC7;12;10)
9	12	6	=POWER((AB8-AA8);3)



Diaqram elektron cədvəlin hansı xanalar diapazonu əsasında qurulmuşdur?

A) AA9:AC9 B) AA7:AC7 C) AA8:AC8 D) AB7:AB9 E) AA7:AA9

İzah: AC7:AC9 diapazonuna daxil olan xanaların qiymətlərini hesabladıqda AC7=(AA8+AA9)/3=10, AC8=IF(AA8>AC7;12;10)=12, AC9=POWER((AB8-AA8);3)=8 qiymətləri alınacaqdır. Tapşırıqda verilmiş diaqram qeyd olunan diapazonlar arasında yalnız AA8:AC8 diapazonu əsasında qurulduqda alınır:



Doğru cavab: AA8:AC8.

A variantı 22 saylı test tapşırığı
B variantı 36 saylı test tapşırığı
C variantı 25 saylı test tapşırığı
D variantı 36 saylı test tapşırığı

Uyğunluğu müəyyən edin.

1. İyerarxik menyu sistemi vasitəsilə mətn fayllarının axtarışı xidməti
2. Telekonfrans və xəbərlər bloku xidməti
3. Uzaq məsafədə yerləşdirilmiş terminalların emulyasiyası sistemi

a. USENET
b. FTP
c. Gopher
d. Telnet
e. E-mail

A) 1 – e; 2 – a; 3 – d B) 1 – c; 2 – b; 3 – d C) 1 – c; 2 – a; 3 – d
D) 1 – a; 2 – b; 3 – e E) 1 – b; 2 – c; 3 – e

İzah: USENET – telekonfrans və xəbərlər bloku, müxtəlif şəbəkə informasiya vasitələri və ya elanlar lövhəsi xidməti, FTP – faylların bir kompüterdən digərinə ötürülməsi xidməti, Gopher – iyerarxik menyu sistemi vasitəsilə mətn fayllarının axtarışı və ötürülməsi xidməti, Telnet – uzaq məsafədə yerləşdirilmiş terminalların emulyasiyası sistemi, E-mail – elektron poçt xidməti, elektron məlumatların ötürülməsi və qəbul edilməsi xidmətidir.

Doğru cavab: 1 – c; 2 – a; 3 – d.

A variantı 23 saylı test tapşırığı
B variantı 21 saylı test tapşırığı
C variantı 28 saylı test tapşırığı
D variantı 27 saylı test tapşırığı

Verilənlərin tipi ***deyil*** (Access 2019):

A) Calculated (Вычисляемый/Hesablanmış)
B) Currency (Денежный/Pul)
C) Number (Числовой/Ədədi)
D) Accounting (Финансовый/Maliyyə)
E) Short Text (Короткий текст/Qısa mətn)

İzah: Access 2019-da verilənlər əsasən Short Text (Короткий текст/Qısa mətn), Long Text (Длинный текст/Uzun mətn), Number (Числовой/Ədədi), Large Number (Bigint), Date\Time (Дата\время/Tarix\Vaxt), Date\Time Extended (Дата и время (расширенный)/Tarix və Vaxt (genişləndirilmiş)), Currency (Денежный/Pul), Autonumber (Счетчик/Sayğac), Yes/No (Логический/Məntiqi), OLE (Поле объекта OLE/OLE obyekt sahəsi), Hyperlink (Гиперссылка/Hiperəlaqə), Attachment (Вложение/Qoşma) və Calculated (Вычисляемый/Hesablanmış) tipləri ilə təsvir olunur. Accounting (Финансовый/Maliyyə) tipi Access 2019-da verilən tipi kimi mövcud deyil.

Doğru cavab: Accounting (Финансовый/Maliyyə).

A variantı 24 saylı test tapşırığı
B variantı 40 saylı test tapşırığı
C variantı 26 saylı test tapşırığı
D variantı 34 saylı test tapşırığı

Doğru mülahizələri müəyyən edin.

1. CMOS, RAM, keş-yaddaş və video-yaddaş daxili yaddaşlardır.
2. Əməli yaddaşda aktiv proqram və verilənlər müvəqqəti saxlanılır.
3. Səs kartı informasiya daşıyıcısıdır.
4. Strimer məlumatı maqnit lenti üzərində saxlayan yaddaş qurğusudur.
5. Matrisli printer informasiyanı istilik vasitəsilə kağıza çap edir.
6. Skanerin seyrəklik qabiliyyəti bir düymə düşən xətlərin sayı ilə təyin olunur.

A) 2, 4, 6 B) 1, 2, 6 C) 1, 5, 6 D) 2, 3, 5 E) 1, 2, 4

İzah: İzahları verib hər bir uyğun mühakimə ilə müqayisə edək:

1. CMOS, RAM, keş yaddaş və video-yaddaş daxili yaddaşlardır. Tapşırıqda verilmiş mühakimə doğrudur.
2. Əməli yaddaşda aktiv proqram və verilənlər müvəqqəti saxlanılır. Tapşırıqda verilmiş mühakimə doğrudur.
3. Səs kartı səsin rəqəmsal formaya və ya əksinə çevrilməsini təmin edir və informasiya daşıyıcısı deyil. Tapşırıqda verilmiş mühakimə yanlışdır.
4. Strimer verilənləri maqnit lenti üzərində saxlayan yaddaş qurğusudur. Tapşırıqda verilmiş mühakimə doğrudur.
5. Matrisli printer informasiyanı iynəli başlıq vasitəsilə kağıza çap edir. Tapşırıqda verilmiş mühakimə yanlışdır.
6. Skanerin seyrəklik qabiliyyəti bir düymə düşən nöqtələrin sayı (dpi) ilə ifadə olunur. Tapşırıqda verilmiş mühakimə yanlışdır.

Doğru cavab: 1, 2, 4.

A variantı 25 saylı test tapşırığı
B variantı 37 saylı test tapşırığı
C variantı 31 saylı test tapşırığı
D variantı 30 saylı test tapşırığı

Mətn prosessorunda sənədə yerləşdirilən Sərlövhənin (Header and Footer/Колонтитулы) səhifədəki mövqeyi hansı lent tabı və lent qrupundan təyin edilir (Word 2019)?

A) Layout ►Arrange (Макет ►Упорядочение/Səhifə Parametrləri►Nizamla)
B) Home ►Styles (Главная►Стили/Ev►Stillər)
C) Insert ►Header and Footer (Вставка►Колонтитулы/ Əlavə et►Yuxarı və Aşağı Sərlövhələr)
D) Insert►Pages (Вставка►Страницы/Əlavə et►Səhifələr)
E) Layout ►Page Setup (Макет ►Параметры страницы/Düzən►Səhifə Parametri)

İzah: Mətn prosessorunda sənədə yerləşdirilən Sərlövhənin (Header and Footer/Колонтитулы) səhifədəki mövqeyi Layout (Макет/Düzən) lent tabının Page Setup (Параметры страницы/Səhifə Parametri) lent qrupundan təyin edilir:



Doğru cavab: Layout ►Page Setup (Макет ►Параметры страницы/Düzən►Səhifə Parametri)

A variantı 26 saylı test tapşırığı
B variantı 26 saylı test tapşırığı
C variantı 27 saylı test tapşırığı
D variantı 22 saylı test tapşırığı

Hansı əməliyyatların köməyilə bütün sənəd seçilər (Word 2019)?

1. Sənədin sol kənarındakı boş sahədə mausun sol düyməsini üçqat klikləməklə.
2. Klaviaturada Ctrl+A düymələr kombinasiyasını sıxmaqla.
3. Sənəd daxilində ixtiyari yerdə mausun sol düyməsini 4 dəfə klikləməklə.
4. Klaviaturada F8 düyməsini 2 dəfə ardıcıl sıxmaqla.
5. Kursoru sənədin sonunda yerləşdirib klaviaturada Shift+Ctrl+Home düymələr kombinasiyasını sıxmaqla.
6. Klaviaturada Ctrl düyməsini basılı saxlamaqla sənəd daxilində ixtiyari yerdə mausun sol düyməsini klikləməklə.
7. Klaviaturada F8 düyməsini 5 dəfə ardıcıl sıxmaqla.

A) 1, 2, 5, 7 B) 2, 3, 6, 7 C) 2, 4, 5, 6 D) 1, 4, 5 E) 1, 4, 6

İzah: İzahları verib hər bir uyğun mühakimə ilə müqayisə edək.

1. Sənədin sol kənarındakı boş sahədə mausun sol düyməsini üçqat klikləməklə bütün sənəd seçilər. Tapşırıqda verilmiş mühakimə doğrudur.
2. Klaviaturada Ctrl+A düymələr kombinasiyasını sıxmaqla bütün sənəd seçilər. Tapşırıqda verilmiş mühakimə doğrudur.
3. Sənəd daxilində ixtiyari yerdə mausun sol düyməsini 4 dəfə klikləməklə bütün sənəd seçilməz. Tapşırıqda verilmiş mühakimə yanlışdır.
4. Klaviaturada F8 düyməsini 2 dəfə ardıcıl sıxmaqla kursorun olduğu söz seçilər. Tapşırıqda verilmiş mühakimə yanlışdır.
5. Kursoru sənədin sonunda yerləşdirib klaviaturada Shift+Ctrl+Home düymələr kombinasiyasını sıxmaqla bütün sənəd seçilər. Tapşırıqda verilmiş mühakimə doğrudur.
6. Klaviaturada Ctrl düyməsini basılı saxlamaqla sənəd daxilində ixtiyari yerdə mausun sol düyməsini klikləməklə cümlə seçilər. Tapşırıqda verilmiş mühakimə yanlışdır.
7. Klaviaturada F8 düyməsini 5 dəfə ardıcıl sıxmaqla bütün sənəd seçilər. Tapşırıqda verilmiş mühakimə doğrudur.

Doğru cavab: 1, 2, 5, 7

A variantı 27 saylı test tapşırığı
B variantı 29 saylı test tapşırığı
C variantı 23 saylı test tapşırığı
D variantı 37 saylı test tapşırığı

File Explorer (Проводник/Fayl Bələdçisi) proqram pəncərəsinin sağ sahəsindəki obyektlərə süzgəcləmə (filtrləmə) tətbiq edilməsi üçün hansı görünüş rejimindən istifadə olunur (Windows 11)?

A) Details (Таблица/Təfərrüatlar)
B) List (Список/Siyahı)
C) Tiles (Плитка/Lövhəciklər)
D) Small Icons (Мелкие значки/Kiçik piktoqramlar)
E) Content (Содержимое/Məzmun)

İzah: Windows 11 əməliyyat sistemində File Explorer (Проводник/Fayl Bələdçisi) proqram pəncərəsinin sağ sahəsindəki obyektlərə süzgəcləmə (filtrləmə) tətbiq etmək yalnız Details (Таблица/Təfərrüatlar) görünüş rejimində mümkündür:



Digər görünüş rejimlərindən File Explorer (Проводник/Fayl Bələdçisi) proqram pəncərəsinin sağ sahəsindəki obyektlərə süzgəcləmə (filtrləmə) tətbiq etmək mümkün deyil.

Doğru cavab: Details (Таблица/Təfərrüatlar)

A variantı 28 saylı test tapşırığı
B variantı 38 saylı test tapşırığı
C variantı 21 saylı test tapşırığı
D variantı 39 saylı test tapşırığı

Təhlükəsizlik divarının (Firewall) əsas funksiyası nədir?

A) Şəbəkəni potensial təhdidlərdən qorumaq
B) MAC ünvanını dəyişmək
C) DNS ünvanlarını şifrləmək və gizlətmək
D) İnternet trafikini şifrləmək
E) SSID-ni yeniləmək

İzah: Təhlükəsizlik divarının (Firewall) əsas funksiyası giriş-çıxış trafikini nəzarətdə saxlamaqla şəbəkəni potensial təhdidlərdən qorumaqdır.
Doğru cavab: Şəbəkəni potensial təhdidlərdən qorumaq.

A variantı 29 saylı test tapşırığı
B variantı 32 saylı test tapşırığı
C variantı 32 saylı test tapşırığı
D variantı 31 saylı test tapşırığı

Uyğunluğu müəyyən edin (Excel 2019).

Kateqoriyalar	*Funksiyalar*
1. Text (Текстовые/Mətn) 2. Logical (Логические/Məntiqi) 3. Statistical (Статистические/Statistik)	a. COUNTIF (СЧЁТЕСЛИ) b. SUMIF (СУММЕСЛИ) c. RIGHT (ПРАВСИМВ) d. POWER (СТЕПЕНЬ) e. IF (ЕСЛИ)

A) 1 – c; 2 – e; 3 – d
B) 1 – d; 2 – b, e; 3 – a
C) 1 – c; 2 – e; 3 – a, b
D) 1 – c; 2 – a, b; 3 – d
E) 1 – c; 2 – e; 3 – a

İzah: COUNTIF (СЧЁТЕСЛИ) funksiyası verilmiş xanalar diapazonunda müəyyən şərti ödəyən ədədlərin sayını tapmaq üçün istifadə edilir və Statistical (Статистические/ Statistik) funksiyalar kateqoriyasına aiddir.
SUMIF (СУММЕСЛИ) funksiyası yalnız müəyyən şərti ödəyən ədədləri toplamaq üçün tətbiq edilir və Math&Trig (Математические/Riyazi və Triqonometrik) funksiyalar kateqoriyasına aiddir.
RIGHT (ПРАВСИМВ) funksiyası qeyd olunmuş mətnin sağdan təyin edilmiş ədədə uyğun sayda simvollar fraqmentini seçmək üçün istifadə edilir və Text (Текстовые/Mətn) funksiyalar kateqoriyasına aiddir.
POWER (СТЕПЕНЬ) funksiyası verilmiş ədədin qüvvətini hesablayır və Math&Trig (Математические/Riyazi və Triqonometrik) funksiyalar kateqoriyasına aiddir.
IF (ЕСЛИ) funksiyası verilmiş şərtdən asılı olaraq arqument kimi verilmiş iki qiymətdən birini seçməyə imkan verir və Logical (Логические/Məntiqi) funksiyalar kateqoriyasına aiddir.
Doğru cavab: 1 – c; 2 – e; 3 – a.

A variantı 30 saylı test tapşırığı
B variantı 30 saylı test tapşırığı
C variantı 34 saylı test tapşırığı
D variantı 29 saylı test tapşırığı

İnternetdə host kompüterin domen adı verilənlər bazasının ... modelinə uyğundur.

A) relyasiya B) şəbəkə C) infoloji D) iyerarxik E) obyektyönlü

İzah: Host kompüterin domen adı şəbəkədə qeydə alınmış domenlərin adlarından ibarət olur. Domenlərin adları isə iyerarxik ardıcıllıqla yazılır: soldan başlayaraq əvvəlcə ən aşağı səviyyənin domeni, sonra isə yuxarı səviyyələrin domenləri. Domen adlarının bu qayda ilə yazılışı verilənlər bazasının iyerarxik modelinə uyğundur.
Doğru cavab: iyerarxik.

A variantı 31 saylı test tapşırığı
B variantı 27 saylı test tapşırığı
C variantı 33 saylı test tapşırığı
D variantı 26 saylı test tapşırığı

TCP protokolunun əsas funksiyası nədən ibarətdir?

A) qısa məlumatların ötürülməsi və etibarlılığın təmin olunmaması
B) uyğun marşrutlar haqqında şəbəkəyə lazımi məlumatın verilməsi
C) informasiya axınının paketlərə bölünməsi və son məntəqədə onların düzgün yığılması
D) informasiya paketlərinin düzgün ünvanlandırılması
E) şəbəkənin vəziyyəti haqqında informasiyanın verilməsi

İzah: TCP (Transmission Control Protocol) protokolu – verilənlərin ötürülməsinin idarə edilməsi protokolu olaraq, bütövlükdə ötürülməsi nəzərdə tutulan informasiyanın müəyyən tələblər çərçivəsində paketlərə ayrılmasına və bu paketlərlə ötürülmüş informasiyanın son məntəqədə yığılaraq düzgün şəkildə tamamlanmasına cavabdehlik daşıyır.
Doğru cavab: informasiya axınının paketlərə bölünməsi və son məntəqədə onların düzgün yığılması.

A variantı 32 saylı test tapşırığı
B variantı 24 saylı test tapşırığı
C variantı 22 saylı test tapşırığı
D variantı 33 saylı test tapşırığı

Sistem proqram təminatına aid olanları müəyyən edin.

1. Verilənlər bazasının idarəedilməsi sistemləri
2. Əməliyyat örtükləri
3. Kompüterin iş qabiliyyətinin diaqnostikası proqramları
4. Avtomatlaşdırılmış layihələndirmə sistemləri
5. Ekspert sistemləri
6. Arxivləşdirmə proqramları

A) 3, 4, 6 B) 2, 5, 6 C) 1, 4, 5 D) 2, 3, 6 E) 1, 2, 5

İzah: Sistem proqram təminatına əməliyyat sistemləri, əməliyyat örtükləri, kompüterin iş qabiliyyətinin diaqnostikası proqramları, antivirus proqram vasitələri, arxivləşdirmə proqramları, drayverlər və s. aiddir. Verilənlər bazasının idarəedilməsi sistemləri, Avtomatlaşdırılmış layihələndirmə sistemləri və Ekspert sistemləri isə tətbiqi proqram təminatına aiddir.
Doğru cavab: 2, 3, 6

A variantı 33 saylı test tapşırığı
B variantı 31 saylı test tapşırığı
C variantı 24 saylı test tapşırığı
D variantı 28 saylı test tapşırığı

Alqoritmin icrası nəticəsində n=8 qiyməti çap olunarsa, n-in ilkin qiymətini müəyyən edin.



A) 112 B) 144 C) 120 D) 136 E) 128

İzah: Dövr a≥45 şərti ödəndikdə sona çatacaqdır. Dövrün təkrarlanma sayı k olarsa, onda k addımdan sonra a dəyişəninin qiyməti a=2+3·k olar. Onda a≥45 şərtindən 2+3·k≥45 → k≥43/3 → k=15 alarıq. 15 addımdan sonra isə n dəyişəninin qiyməti n=n−8·15 olar. Bu qiymət isə tapşırığın şərtinə görə 8-ə bərabərdir: n−8·15=8. Buradan n=128 alarıq.
Doğru cavab: 128.

A variantı 34 saylı test tapşırığı
B variantı 23 saylı test tapşırığı
C variantı 37 saylı test tapşırığı
D variantı 21 saylı test tapşırığı

Alqoritmin xassələrinə aiddir:

A) faydalılıq B) müəyyənlik C) aktuallıq D) qiymətlilik E) adekvatlıq

İzah: Alqoritmin əsas xassələrinə aiddir: müəyyənlik, diskretlik, kütləvilik, nəticəlilik. Faydalılıq, aktuallıq, qiymətlilik, adekvatlıq isə alqoritmin xassələrinə aid deyil.

Doğru cavab: müəyyənlik

A variantı 35 saylı test tapşırığı
B variantı 25 saylı test tapşırığı
C variantı 40 saylı test tapşırığı
D variantı 38 saylı test tapşırığı

Doğru fayl adlarını müəyyən edin (Windows 11):

1. 'magistr'.docx 2. <magistr>.docx
3. magistr*1.pptx 4. & magistr &.xlsx
5. ^magistr 1^.docx 6. magistr|1.pptx
7. magistr;1;2.docx

A) 2, 3, 4, 5 B) 1, 2, 3, 6 C) 1, 4, 5, 7 D) 1, 4, 6, 7 E) 2, 3, 5, 7

İzah: Windows 11 əməliyyat sistemində fayl və qovluqların adlandırılmasında idarəedici (kodu 31-ə kimi olan) və **\ / : * ? " < > |** simvollarından başqa bütün simvollardan istifadə etmək olar. 1, 4, 5, 7 bəndlərindəki fayl adlarında **\ / : * ? " < > |** simvollarından və digər qadağan olunmuş simvollardan istifadə olunmadığı üçün onlar doğru fayl adlarıdır.

Doğru cavab: 1, 4, 5, 7.

A variantı 36 saylı test tapşırığı
B variantı 35 saylı test tapşırığı
C variantı 30 saylı test tapşırığı
D variantı 23 saylı test tapşırığı

Ribbon (Лента/Lent) interfeysi təqdimatın hansı görünüş rejimində əks ***olunmur*** (PowerPoint 2019)?

A) Normal (Обычный/Normal)
B) Notes Page (Страницы заметок/Qeydlər Səhifəsi)
C) Slide Sorter (Сортировщик слайдов/Slayd Çeşidləyicisi)
D) Reading View (Режим чтения/Oxu görünüşü)
E) Outline View (Режим Структуры/Struktur rejimi)

İzah: PowerPoint 2019 proqramında Reading View (Режим чтения/Oxu görünüşü) görünüş rejimində ekranda əks olunan slaydın yuxarı və aşağı hissələrində uyğun olaraq pəncərə başlığı paneli və vəziyyət sətri görünür, Ribbon (Лента/Lent) interfeysi isə görünmür:



Digər görünüş rejimlərində isə Ribbon (Лента/Lent) interfeysi görünür.

Doğru cavab: Reading View (Режим чтения/Oxu görünüşü).

A variantı 37 saylı test tapşırığı
B variantı 22 saylı test tapşırığı
C variantı 29 saylı test tapşırığı
D variantı 40 saylı test tapşırığı

Uyğunluğu müəyyən edin.

1. 195_{10}
2. 375_{10}
3. 442_{10}

a. $C3_{16}$
b. 177_{16}
c. 123_{16}
d. 237_{16}
e. $1BA_{16}$

A) 1 – c; 2 – d; 3 – e
B) 1 – a; 2 – b; 3 – e
C) 1 – a; 2 – d; 3 – e
D) 1 – c; 2 – b; 3 – e
E) 1 – a; 2 – b; 3 – d

İzah: Tam onluq ədədlərin onluq olmayan say sisteminə çevrilməsi verilmiş ədədin ardıcıl olaraq, qalıqda ədədin çevriləcəyi say sisteminin əsasından kiçik ədəd alınana qədər həmin əsası göstərən ədədə bölünməsi yolu ilə aparılır:
1. 195/16=**12** qalıqda **3**
və $12_{10}=C_{16}$ olduğundan $195_{10}= C3_{16}$

2. 375/16=23 qalıqda 7
23/16=**1** qalıqda **7**
olduğundan $375_{10}=177_{16}$

3. 442/16=27 qalıqda **10**
27/16=**1** qalıqda **11**
və $10_{10}=A_{16}$, $11_{10}=B_{16}$ olduğundan $442_{10}=1BA_{16}$
Doğru cavab: 1 – a; 2 – b; 3 – e.

A variantı 38 saylı test tapşırığı
B variantı 39 saylı test tapşırığı
C variantı 38 saylı test tapşırığı
D variantı 24 saylı test tapşırığı

Kitab.doc faylı **C:\İnformatika\Nəzəriyyə** qovluğunda yerləşir. **İnformatika** qovluğunda **Praktika** altqovluğu yaradılır və həmin fayl yeni yaradılmış altqovluğa daşınır. Bundan sonra həmin faylın tam adı hansı olur?

A) C:\Praktika\Kitab.doc
B) C:\İnformatika\Praktika\Nəzəriyyə\Kitab.doc
C) C:\İnformatika\Praktika\Kitab.doc
D) C:\İnformatika\Nəzəriyyə\Kitab.doc
E) C:\İnformatika\Nəzəriyyə\Praktika\Kitab.doc

İzah: İnformatika qovluğunda **Praktika** altqovluğu yaradıldıqdan və **Kitab.doc** faylı bu altqovluğa daşındıqdan sonra **Kitab.doc** faylı **Praktika** altqovluğunda yerləşir. Onda **Kitab.doc** faylının tam adı C:\İnformatika\Praktika\Kitab.doc kimi olar.
Doğru cavab: C:\İnformatika\Praktika\Kitab.doc

A variantı 39 saylı test tapşırığı
B variantı 33 saylı test tapşırığı
C variantı 39 saylı test tapşırığı
D variantı 35 saylı test tapşırığı

Körpü nədir?

A) Müxtəlif topologiyalı və protokollu iki və ya daha çox kompüter şəbəkəsini birləşdirən qurğudur.
B) Müxtəlif topologiyalı, lakin eyni protokola malik iki və ya daha çox lokal şəbəkəni birləşdirən qurğudur.
C) İşçi stansiyanı yoğun koaksial kabelə qoşan qurğudur.
D) Müxtəlif protokollu iki müxtəlif kompüter şəbəkəsi arasında əlaqə yaradan qurğudur.
E) Kompüterlərin şəbəkə adapterlərini nazik kabellə birləşdirən qurğudur.

İzah: Müxtəlif topologiyalı, lakin eyni protokola malik iki və ya daha çox lokal şəbəkənin birləşdirilməsi Körpü (Bridge) vasitəsilə təmin edilir. Digər bəndlərdə verilmiş xüsusiyyətlər Körpü (Bridge) qurğusunun xüsusiyyətlərini əks etdirmir.
Doğru cavab: Müxtəlif topologiyalı, lakin eyni protokola malik iki və ya daha çox lokal şəbəkəni birləşdirən qurğudur.

A variantı 40 saylı test tapşırığı
B variantı 28 saylı test tapşırığı
C variantı 35 saylı test tapşırığı
D variantı 32 saylı test tapşırığı
Aşağıda göstərilənlər lent tabının hansı düyməsinə aiddir (Word 2019)?



A) B) C) D) E)

İzah: Tapşırıqda göstərilənlər Home (Главная/Ev) lent tabının Paragraph (Абзац/Abzas) lent qrupunun Bullets (Маркеры/Markerlər) düyməsinə aiddir:



Doğru cavab:

A variantı 41 saylı test tapşırığı
B variantı 41 saylı test tapşırığı
C variantı 41 saylı test tapşırığı
D variantı 42 saylı test tapşırığı
Kitabın elektron versiyası 192 səhifədən ibarətdir. Bu kitabın hər 3 səhifəsindən birində yalnız 512x256 piksel ölçülü və rəng dərinliyi 16 bit olan şəkil yerləşir. Qalan səhifələrin hər birində 4096 simvol olan Unicode-da kodlaşdırılmış mətn mövcuddur. Bu kitabın elektron versiyasının informasiya həcmi neçə Mbayt olar?

İzah: Kitabın hər 3 səhifəsindən birində, yəni 192/3=64 səhifənin hər birində yalnız 512x256 piksel ölçülü və rəng dərinliyi 16 bit olan şəkil yerləşir. Onda 64 səhifədəki şəkillərin informasiya həcmi 64x512x256x16 bit=16 Mbayt olar. Qalan səhifələrin hər birində, yəni 192 – 64=128 səhifədə Unicode-da kodlaşdırılmış 4096 simvoldan ibarət mətn yerləşir. Onda 128 səhifəlik mətnin informasiya həcmi 128x4096x2 bayt=1 Mbayt olar. Beləliklə, kitabın elektron versiyasının informasiya həcmi 16+1=17 Mbayt olar.
Doğru cavab: 17.

A variantı 42 saylı test tapşırığı
B variantı 43 saylı test tapşırığı
C variantı 43 saylı test tapşırığı
D variantı 41 saylı test tapşırığı
A1:E8 və F2:H9 diapazonlarında birlikdə neçə xana vardır (Excel 2019)?
İzah: A1:E8 diapazonunda 5 sütun (A, B, C, D, E) və 8 sətir (1, 2, 3, 4, 5, 6, 7, 8) olduğundan bu diapazonda 5x8=40 xana vardır. F2:H9 diapazonunda isə 3 sütun (F, G, H) və 8 sətir (2, 3, 4, 5, 6, 7, 8, 9) olduğundan 3x8=24 xana mövcuddur. Beləliklə, A1:E8 və F2:H9 diapazonlarında birlikdə 40+24=64 xana olar.
Doğru cavab: 64.

A variantı 43 saylı test tapşırığı
B variantı 44 saylı test tapşırığı
C variantı 42 saylı test tapşırığı
D variantı 43 saylı test tapşırığı

Üçölçülü qrafik proqram vasitələrinə aid ***deyil***:

1. Adobe Photoshop
2. ZBrush
3. Maya
4. Softimage XSI
5. Adobe Illustrator
6. Corel Draw

İzah: Adobe Photoshop rastr qrafik redaktorlara, ZBrush, Maya və Softimage XSI üçölçülü qrafik redaktorlara, Adobe Illustrator və Corel Draw isə vektor qrafik redaktorlara aiddir.
Doğru cavab: 1, 5, 6.

A variantı 44 saylı test tapşırığı
B variantı 42 saylı test tapşırığı
C variantı 44 saylı test tapşırığı
D variantı 44 saylı test tapşırığı

Set Up Slide Show (Настройка слайд-шоу/Slayd Nümayişinin Sazlanması) əmri ilə yerinə yetirilən əməliyyatları müəyyən edin (PowerPoint 2019):

1. Slaydların gizlədilməsi
2. Slaydlar arasında keçid vaxtının təyin olunması
3. Bir slayddan digərinə avtomatik keçmək üçün daxil edilmiş vaxt qrafikindən istifadə
4. Təqdimatın nümayiş tipinin seçilməsi
5. Slaydları nitq müşayiəti ilə nümayiş etdirmək üçün səsin yazılması
6. Nümayiş olunacaq slaydların intervalının göstərilməsi

İzah: Set Up Slide Show (Настройка слайд-шоу/Slayd Nümayişinin Sazlanması) əmrinin icrası nəticəsində Set Up Show (Настройка слайд-шоу/Təyinetməni göstər) dialoq pəncərəsi açılır:



İzahları verib hər birini uyğun mühakimə ilə müqayisə edək.

1. Slaydların gizlədilməsi Slide Show (Слайд-шоу/Slaydı Göstər) tabının Set Up (Настройка/Quraşdır) lent qrupunun Hide Slide (Скрыть слайд/Slaydı Gizlət) düyməsini sıxmaqla həyata keçirilir. Tapşırıqda verilmiş mühakimə yanlışdır.
2. Slaydlar arasında keçid vaxtı Transitions (Переходы/Keçidlər) tabının Timing (Время показа слайдов/Vaxt) lent qrupunun After (После/Sonra) parametri ilə və ya Slide Show (Слайд-шоу/Slaydı Göstər) tabının Rehearse Timings (Настройка времени/Vaxtın sazlanması) düyməsini sıxmaqla həyata keçirilir. Tapşırıqda verilmiş mühakimə yanlışdır.
3. Bir slayddan digərinə avtomatik keçmək üçün daxil edilmiş vaxt qrafikindən istifadə Set Up Show (Настройка слайд-шоу/Təyinetməni göstər) dialoq pəncərəsindəki “Using timings, if presents” parametrinin seçilməsi ilə mümkündür. Tapşırıqda verilmiş mühakimə doğrudur.
4. Təqdimatın nümayiş tipinin seçilməsi Set Up Show (Настройка слайд-шоу/Təyinetməni göstər) dialoq pəncərəsindəki “Show type” parametrinin seçilməsi ilə mümkündür. Tapşırıqda verilmiş mühakimə doğrudur.
5. Slaydları nitq müşayiəti ilə nümayiş etdirmək üçün səsin yazılması Record (Запись/Səsyazma) lent tabının və ya Slide Show (Слайд-шоу/Slaydı Göstər) tabının Set Up (Настройка/Quraşdır) lent qrupunun Record (Запись/Səsyazma) düyməsini sıxmaqla həyata keçirilir. Tapşırıqda verilmiş mühakimə yanlışdır.
6. Nümayiş olunacaq slaydların intervalının göstərilməsi Set Up Show (Настройка слайд-шоу/Təyinetməni göstər) dialoq pəncərəsindəki “Show slides” parametrinin seçilməsi ilə mümkündür. Tapşırıqda verilmiş mühakimə doğrudur.

Doğru cavab: 3, 4, 6

A variantı 45 saylı test tapşırığı
B variantı 45 saylı test tapşırığı
C variantı 45 saylı test tapşırığı
D variantı 45 saylı test tapşırığı

Uyğunluğu müəyyən edin (Word 2019):

1. Insert (Вставка/Əlavə et)
2. Review (Рецензирование/İcmal)
3. View (Вид/Görünüş)

a.

b. 

c.

d. 

e. 

İzah: Insert (Вставка/Əlavə et) lent tabında yerləşən lent qrupları:





Review (Рецензирование/İcmal) lent tabında yerləşən lent qrupları:





View (Вид/Görünüş) lent tabında yerləşən lent qrupları:





Doğru cavab: 1 – c, e; 2 – d; 3 – a, b.

Məntiqi təfəkkürü yoxlayan test tapşırıqları

A variantı 46 saylı test tapşırığı
B variantı 66 saylı test tapşırığı
C variantı 73 saylı test tapşırığı
D variantı 62 saylı test tapşırığı

Aşağıdakı şəkildə təsadüfi qeyd olunan nöqtənin 1, 2 və 5-ci fiqurlardan (üçbucaq, paraleloqram və romb) kənara düşmə ehtimalını tapın (şəkildəki ağ çoxbucaqlıların təpə nöqtələri yalnız xanaları əmələ gətirən kvadratların təpə nöqtələrində, tərəflərinin ortasında, xanaların mərkəzində yerləşə bilər).



A) 45/121 B) 90/121 C) 8/11 D) 3/5 E) 4/5

İzah: 1, 2 və 5-ci fiqurların sahələri cəmi 13+9+9=31.
Şəklin qalan hissəsinin sahəsi 11x11-31=90.
Təsadüfi qeyd olunan nöqtənin 1, 2 və 5-ci fiqurlardan kənara düşmə ehtimalı 90/121.
Doğru cavab: 90/121.

A variantı 47 saylı test tapşırığı
B variantı 79 saylı test tapşırığı
C variantı 55 saylı test tapşırığı
D variantı 52 saylı test tapşırığı

Azər 4 qələm alırsa, 1 manatı artıq qalır, 6 qələm alırsa,
2 manatı çatmır. Azərin neçə manatı var?

A) 3 B) 5 C) 6 D) 7 E) 4

İzah: 4x+1=6x-2, 2x=3, x=1,5, 4x+1=7 və ya 6x-2=7.

Doğru cavab:7

A variantı 48 saylı test tapşırığı
B variantı 73 saylı test tapşırığı
C variantı 64 saylı test tapşırığı
D variantı 64 saylı test tapşırığı

Qanunauyğunluğu müəyyən edin və "?" əvəzinə uyğun olan variantı seçin.



A)
B)
C)

D)
E)

İzah: Soldan sağa addımladıqca qara dairə küncdən mərkəzə, ardınca saat əqrəbinin hərəkəti istiqamətdə növbəti küncə keçir. Parça isə qara dairə ilə bağlılığını saxlayaraq hər addımda həmin istiqamətdə 45^0 dönür, növbə ilə qısalır və ya uzanır.

Doğru cavab:

A variantı 49 saylı test tapşırığı
B variantı 61 saylı test tapşırığı
C variantı 48 saylı test tapşırığı
D variantı 73 saylı test tapşırığı

Şəkil əvvəlcə 1 – 1, sonra 2 – 2, ardınca 3 – 3 və nəhayət, 4 – 4 xətləri üzrə qatlanır. "?" işarəsinin yerində alınan vəziyyəti müəyyən edin.



A)

B) 

C)

D) 

E)

İzah:



Doğru cavab:



A variantı 50 saylı test tapşırığı
B variantı 82 saylı test tapşırığı
C variantı 83 saylı test tapşırığı
D variantı 65 saylı test tapşırığı

Qanunauyğunluğu müəyyən edin və "?" əvəzinə uyğun olan variantı seçin.



A) B) C)

D) E)

İzah: 4 fiqurdan ibarət komplekt saat əqrəbinin hərəkəti istiqamətində böyük dairənən bir sektorundan digərinə keçərkən öz mərkəzi ətrafında həmin istiqamətdə 90^0 dönür, bu zaman tənha kiçik dairə rəngini dəyişir.

Doğru cavab:

A variantı 51 saylı test tapşırığı
B variantı 83 saylı test tapşırığı
C variantı 76 saylı test tapşırığı
D variantı 74 saylı test tapşırığı

Qanunauyğunluğu taparaq "?" işarəsinin yerinə uyğun gələn ədədi müəyyən edin.



A) 10 B) 8 C) 7 D) 9 E) 6

İzah: Fiqurun təpə nöqtələrinə daxildən qonşu olan ədədlə qarşı təpəyə xaricdən qonşu olan ədədin cəmi ilə xaricdən qonşu olan ədədlə qarşı təpəyə daxildən qonşu olan ədədin cəmi bərabərdir.

Doğru cavab: 6

A variantı 52 saylı test tapşırığı
B variantı 50 saylı test tapşırığı
C variantı 50 saylı test tapşırığı
D variantı 61 saylı test tapşırığı

Verilən hissələrin fikrən birləşdirilməsindən alınan fiquru seçin.

A)



B)

C)



D)

E)



İzah:



Doğru cavab:



A variantı 53 saylı test tapşırığı
B variantı 67 saylı test tapşırığı
C variantı 58 saylı test tapşırığı
D variantı 84 saylı test tapşırığı

Sağ tərəfdəki çoxluğu təşkil edən ədədlərin hər biri sol tərəfdəki çoxluğun bir elementini şifrləyib. Eyni rəqəmlərin eyni, fərqli rəqəmlərin isə fərqli hərfləri və ya hərf birləşmələrini şifrlədiyini bilərək tapşırığı yerinə yetirin.

ƏDALƏT	⇔	481
AFƏMAN		506
LƏTAFƏT		123
MAVİ		675
ƏMANƏT		806
NƏDS		392
VİMƏMA		245
SƏMAVİ		903
ƏTALƏT		724

ƏDALƏT, LƏTAFƏT, MAVİ və SƏMAVİ sözlərini şifrləyən ədədlərin hər birinin rəqəmləri cəmini müəyyən edin və onları toplayın.

A) 60 B) 45 C) 65 D) 50 E) 55

ƏDALƏT ⇔ 806
AFƏMAN ⇔ 724
LƏTAFƏT ⇔ 675
MAVİ ⇔ 903
ƏMANƏT ⇔ 245
NƏDS ⇔ 481
VİMƏMA ⇔ 392
SƏMAVİ ⇔ 123
ƏTALƏT ⇔ 506

İzah:
ƏDALƏT, LƏTAFƏT, MAVİ və SƏMAVİ sözlərini şifrləyən ədədlərin rəqəmlərinin cəmi
(8+0+6)+(6+7+5)+(9+0+3)+(1+/2+3)=14+18+12+6=50
Doğru cavab: 50

A variantı 54 saylı test tapşırığı
B variantı 77 saylı test tapşırığı
C variantı 52 saylı test tapşırığı
D variantı 75 saylı test tapşırığı

Eyni bir fiqurun iki fərqli görünüşü verilib. Variantlardan hansılar bu fiqurun açılışları ola bilər?



1. 

2. 

3. 

4. 

5. 

A) yalnız 2, 5 B) 1, 3, 4 C) yalnız 3, 4
D) 2, 3 E) 1, 2, 5

İzah: Şərtdəki görünüşlərə əsasən İ C-nin yuxarısında, C isə N-in sağında yerləşir və bu vəziyyətlər 1, 4 və 5-ci şəkillərdə müşahidə olunmur, yalnız 2 və 3-də müşahidə olunur.
Doğru cavab: 2, 3

A variantı 55 saylı test tapşırığı
B variantı 70 saylı test tapşırığı
C variantı 78 saylı test tapşırığı
D variantı 83 saylı test tapşırığı

İmtahanda iştirak edən tələbələr 65, 70, 75, 80, 85, 90 və ya 95 bal toplamışlar. Diaqramda müxtəlif ballar və həmin balları toplayan tələbələrin sayları göstərilib.



Tələbələrin orta balını tapın.

A) 74 B) 72,5 C) 75,5 D) 73,2 E) 76

İzah: İmtahanda iştirak edən tələbələrin sayı 4+6+2+4+1+2+1=20-dir. Onların topladığı balların cəmi isə 65x4+70x6+75x2+80x4+85+90x2+95=1510.
Tələbələrin orta balı 1510/20=75,5.

Doğru cavab: 75,5

A variantı 56 saylı test tapşırığı
B variantı 59 saylı test tapşırığı
C variantı 70 saylı test tapşırığı
D variantı 81 saylı test tapşırığı

Qanunauyğunluğu müəyyən edin və "?" əvəzinə uyğun olan variantı seçin.


?

A)
B)
C)

D)
E)

İzah: Sətir üzrə addımladıqca şəkil əvvəlcə saat əqrəbi hərəkəti istiqamətində 90^0 dönür, yarımcıq fiqur bütövləşir, ardınca şəkil əks istiqamətdə 90^0 dönür, üstə yarımçıq fiqur əlavə olunur.

Doğru cavab:

A variantı 57 saylı test tapşırığı
B variantı 81 saylı test tapşırığı
C variantı 57 saylı test tapşırığı
D variantı 47 saylı test tapşırığı

Qanunauyğunluğu müəyyən edin və "?" əvəzinə uyğun olan variantı seçin.



İzah: "+" operatoru şəkli yuxarıdan aşağıya simmetrik çevirir, ⊗ operatoru isə şəklə qarşılıqlı perpendikulyar düz xətlər əlavə edir.

Doğru cavab:

A variantı 58 saylı test tapşırığı
B variantı 58 saylı test tapşırığı
C variantı 69 saylı test tapşırığı
D variantı 53 saylı test tapşırığı

5 tələbə – A, B, C, D, E yazılı imtahan verirdilər. Müəllim tələbələrdən birinin cavabları köçürdüyünü öyrəndi. Həmin tələbənin imtahan nəticələrini ləğv etmək üçün müəllim kimin bunu etdiyini müəyyən etməlidir. Məlumdur ki, aşağıdakı mülahizələrdən yalnız biri ***yanlışdır***:

- A cavab vərəqini boş təhvil verib.
- B A-dan köçürüb, C isə D-dən köçürməyib.
- D və E köçürməyiblər.
- B köçürməyib.

Kimin imtahan nəticələri ləğv olunmalıdır?

A) D-nin B) C-nin C) E-nin
D) A-nın E) B-nin

İzah: 1-ci mülahizə yanlışdırsa, digərləri doğrudur (şərtə görə). Deməli, B A-dan köçürüb. Bu halda 4-cü müddəa da yanlışdır. 2-ci mülahizənin yanlış olması mümkün deyildir. Deməli, 1-ci mülahizə doğrudur, yəni A cavab vərəqini boş təhvil verib. Cavab vərəqini təhvil verəndən köçürmənin mümkünsüzlüyü səbəbindən 2-ci mülahizə yanlış hesab olunur. Bu səbəbdən 3 və 4-cü mülahizələr doğrudur, yəni D, E və B köçürməyib. Beləliklə köçürənin C olduğu müəyyənləşir.

Doğru cavab: C-nin

A variantı 59 saylı test tapşırığı
B variantı 55 saylı test tapşırığı
C variantı 71 saylı test tapşırığı
D variantı 49 saylı test tapşırığı

Birinci qutuda 42 qırmızı top var, yaşıl top yoxdur. İkinci qutuda 14 qırmızı və 28 yaşıl top var. İkinci qutudan neçə ədəd yaşıl top götürüb birinciyə qoyulsa, yaşıl topların sayının qırmızı topların sayına nisbəti hər iki qutuda eyni olar?
A) 10 B) 7 C) 18 D) 21 E) 14

İzah: 2 qutuda birlikdə 42+14=56 qırmızı və 28 yaşıl top var. Hər bir yaşıl topa iki qırmızı top uyğun gəlir. Bu nisbəti təmin etmək üçün 1-ci qutuya 42/2=21 yaşıl top əlavə olunmalıdır.
Yaşıl topların sayının qırmızı topların sayına nisbəti 1-ci qutuda 21/42=1/2, 2-ci qutuda 7/14=1/2 olur.

Doğru cavab: 21

A variantı 60 saylı test tapşırığı
B variantı 65 saylı test tapşırığı
C variantı 53 saylı test tapşırığı
D variantı 78 saylı test tapşırığı

Qanunauyğunluğu müəyyən edin və "?" əvəzinə uyğun variantı seçin.



A) B) C)

D) E)

İzah: Eyni sıradakı toplananlardan birini digərinin üzərinə qoyduqda üst-üstə düşən ağ üçbucaqların rəngi ağarır, digərlərinin rəngi qaralır və ya qara olaraq qalır və bu vəziyyət sıranın 3-cü xanasında üçün müşahidə olunur.

Doğru cavab:

A variantı 61 saylı test tapşırığı
B variantı 76 saylı test tapşırığı
C variantı 62 saylı test tapşırığı
D variantı 79 saylı test tapşırığı

"?" əvəzinə hansı ədəd yazılmalıdır?

$a \blacktriangle b=(a-b)(a^2+ab+b^2)$
$3 \blacktriangle d=19$
d = ?
A) 5 B) 2 C) 4 D) 6 E) 8

İzah: $3 \blacktriangle d=(3-d)(9+3d+d^2)=19$
$27+9d+3d^2-9d-3d^2-d^3=19$
$d^3=8$, $d=2$.
Doğru cavab: 2

A variantı 62 saylı test tapşırığı
B variantı 71 saylı test tapşırığı
C variantı 77 saylı test tapşırığı
D variantı 51 saylı test tapşırığı

Hərflərinin sırası pozulmuş beş sözdən dördü arasında məntiqi əlaqə vardır. Fərqli sözü göstərin.

A) z ə r b i l i k B) k ü ü z C) z ə k u
D) y a d m e n o l E) ğ a y u n b ı b o

İzah: Hərflərinin sıralarını bərpa etdikdə alınan sözlərdən biri kuzə, digərləri – üzük, bilərzik, boyunbağı və medalyondur. Kuzə qabdır, digərləri – üzük, bilərzik, boyunbağı, medalyon zərgərlik məmulatlarıdır (bəzək əşyalarıdır).

Doğru cavab: z ə k u

A variantı 63 saylı test tapşırığı
B variantı 63 saylı test tapşırığı
C variantı 49 saylı test tapşırığı
D variantı 59 saylı test tapşırığı

Qanunauyğunluğu müəyyən edin və "?" əvəzinə uyğun variantı seçin.



A) 29 B) 3 C) 5 D) 6 E) 28

İzah: $4 \cdot 8=2^5$, $32=32$
$9 \cdot 4=6^2$, $36=36$
$9 \cdot 3=3^3$, $27=27$
$9 \cdot 9=?^4$, $81=?^4$, $?=3$

Doğru cavab: 3

A variantı 64 saylı test tapşırığı
B variantı 60 saylı test tapşırığı
C variantı 66 saylı test tapşırığı
D variantı 67 saylı test tapşırığı



1-dən 6-ya qədər ədədləri bu xanalarda elə yerləşdirmək lazımdır ki, aşağıdakı şərtlər ödənsin (hər xanada bir ədəd olmalıdır):
1) 4, 6 və onların arasındakı ədəd(lər)in cəmi 13-ə bərabər olsun;
2) 2, 3 və onların arasındakı ədəd(lər)in cəmi 14-ə bərabər olsun.
Ədədləri xanaya neçə cür yerləşdirmək olar?
A) 2 B) 4 C) 5 D) 3 E) 6

İzah: Ədədləri xanaya 6 cür yerləşdirmək olar.
125436 634521
254361 163452
354216 612453

Doğru cavab: 6

A variantı 65 saylı test tapşırığı
B variantı 54 saylı test tapşırığı
C variantı 82 saylı test tapşırığı
D variantı 46 saylı test tapşırığı

Akvarium – qalın xətlərlə sərhədlənmiş bloklara bölünüb. Hər bir blokun rənglənəcək xanaları həmin blokdakı suyun səviyyəsini göstərəcək (Xana yarımçıq rənglənə bilməz). Blokun eni boyu hər hansı bir sətir üzrə xanaların ya hamısı su ilə dolmalıdır, ya da hamısı boş olmalıdır. Blokda su ilə dolu sətrin altında boş sətir (sətirlər) ola bilməz. Hər bir sütundan yuxarıda və hər bir sətirdən solda yazılmış ədədlər uyğun sütun və sətirlərdəki su ilə dolu xanaların sayını göstərir.



Hərflərin yerləşdiyi xanaların vəziyyəti (boş və dolu) ilə hərflər arasındakı uyğunluğu müəyyənləşdirin:
1. Boş
2. Dolu
a. A
b. B
c. C
d. D
e. E
A) 1 – a, b, c; 2 – d, e B) 1 – a, b, e; 2 – c, d
C) 1 – a, c, e; 2 – b, d D) 1 – b, c, d; 2 – a, e
E) 1 – c, e; 2 – a, b, d



İzah:
Doğru cavab: 1 – a, c, e; 2 – b, d

A variantı 66 saylı test tapşırığı
B variantı 56 saylı test tapşırığı
C variantı 65 saylı test tapşırığı
D variantı 82 saylı test tapşırığı

Qanunauyğunluğu müəyyən edin və "?" əvəzinə uyğun olan variantı seçin.

▲361⇒70 38■⇒61
▲730⇒79 75■⇒18
▲823■⇒87■⇒41
▲632■⇒?

A) 70 B) 66 C) 58 D) 28 E) 44

İzah: $3^2+61=70$; $8^2-3=61$
$7^2+30=79$; $5^2-7=18$
$8^2+23=87$; $7^2-8=41$
$6^2+32=68$; $8^2-6=58$
Doğru cavab:58

A variantı 67 saylı test tapşırığı
B variantı 48 saylı test tapşırığı
C variantı 61 saylı test tapşırığı
D variantı 60 saylı test tapşırığı



Şəkildə hər biri bağlar vasitəsilə bir neçə kvadrat ilə əlaqələnən 12 kvadratdan ibarət fiqur verilmişdir. Bu fiqur deformasiyaya uğrayaraq aşağıdakı şəklə düşmüşdür (kvadratlar bir-birinə nəzərən yerlərini dəyişmiş, bağlar qırılmamışdır).



X və *Y* ilə hansı hərflər əvəzlənib?
A) *Ə*, *İ* B) *A*, *T* C) *A*, *C* D) *D*, *K* E) *H*, *N*

İzah: 4 əlaqəli H hərfi ilə qonşu olan 2 əlaqəli hərf B, digər 2 əlaqəli hərf E-dir. B ilə əlaqəli digər hərf C-dir (Y ilə əvəzlənib). C ilə əlaqəli 3 əlaqəli hərf M-dir. M ilə əlaqəli 4 əlaqəli hərf A-dır (X ilə əvəzlənib).



Doğru cavab: A, C

A variantı 68 saylı test tapşırığı
B variantı 49 saylı test tapşırığı
C variantı 63 saylı test tapşırığı
D variantı 68 saylı test tapşırığı

Alimlər müxtəlif heyvanların uzunömürlülüyü ilə bağlı tədqiqat aparmışlar. Onların gəldiyi nəticələrə görə, inək atdan daha az, qartal ayıdan daha çox, tutuquşu qartaldan daha çox, it inəkdən daha az, ayı atdan daha çox yaşayır. Tədqiqata əsasən bu heyvanlardan ən çox (M) və ən az (N) yaşayanını müəyyən edin.

A) M – tutuquşu, N – it B) M – at, N – it
C) M – tutuquşu, N – at D) M – at, N – inək
E) M – ayı, N – inək

İzah: Heyvanların ömür uzunluğu ilə bağlı sırası (çoxdan aza) belədir: Tutuquşu, qartal, ayı, at, inək, it

Doğru cavab: M – tutuquşu, N – it.

A variantı 69 saylı test tapşırığı
B variantı 80 saylı test tapşırığı
C variantı 84 saylı test tapşırığı
D variantı 72 saylı test tapşırığı

Qırmızı və sarı rəngli karandaşlar, eyni rəngli karandaşların bir-birinin yanında saylarının 3-dən artıq olmaması şərti ilə düzülürsə, bu karandaşların birlikdə sayı ən azı neçə olmalıdır ki, mümkün düzülmə variantlarının sayı üçrəqəmli ədədə bərabər olsun?

A) 8 B) 11 C) 7 D) 9 E) 10

İzah: $1_{1bir\ s\ 1bir\ q}$ $2_{1bir\ s\ 1iki\ s\ 1bir\ q\ 1iki\ q}$ $3_{2bir\ s\ 1iki\ s\ 1üç\ s\ 2bir\ q\ 1iki\ q\ 1üç\ q}$ $4_{4bir\ s\ 2iki\ s\ 1üç\ s\ 4bir\ q\ 2iki\ q\ 1üç\ q}$
$5_{7bir\ s\ 4iki\ s\ 2üç\ s\ 7bir\ q\ 4iki\ q\ 2üç\ q}$ $6_{13bir\ s\ 7iki\ s\ 4üç\ s\ 13bir\ q\ 7iki\ q\ 4üç\ q}$ $7_{24bir\ s\ 13iki\ s\ 7üç\ s\ 24bir\ q\ 13iki\ q\ 7üç\ q}$ $8_{44bir\ s\ 24iki\ s\ 13üç\ s\ 44bir\ q\ 24iki\ q\ 13üç\ q}$
8 karandaş üçün mümkün düzülmə variantlarının sayı (44+24+13)x2=162 üçrəqəmli ədəddir.
Doğru cavab: 8

A variantı 70 saylı test tapşırığı
B variantı 51 saylı test tapşırığı
C variantı 81 saylı test tapşırığı
D variantı 57 saylı test tapşırığı

"Sinoptiklərin söylədiyi kimi ötən gecə qar yağdı" cümləsində verilən fikrə əsasən aşağıdakılardan hansı mütləq doğrudur?

A) Qarın yağmasını heç kim gözləmirdi.
B) Sinoptiklər qışın artıq özünü göstərməyə başladığını söyləmişdilər.
C) Səhər açılanda hər yer ağappaq idi.
D) Sinoptiklər həmişə düz proqnoz verirlər.
E) Qarın yağması gözlənilən idi.

İzah: Qarın yağacağını sinoptiklər söyləmişdi.
Doğru cavab: Qarın yağması gözlənilən idi.

A variantı 71 saylı test tapşırığı
B variantı 52 saylı test tapşırığı
C variantı 68 saylı test tapşırığı
D variantı 76 saylı test tapşırığı

Boş xanalara 1, 2, 3, 4 və 5 rəqəmlərini elə yerləşdirin ki, həmin rəqəmlər hər bir sətirdə, hər bir sütunda və tünd xətlərlə hüdudlanmış beşxanalı hər bir blokda yalnız bir dəfə istifadə olunsun. (a+b+1) cəmini tapın.

		3		a
		4		
2	b			3
			1	

A) 10 B) 11 C) 8 D) 9 E) 7

İzah:

4	1	3	2	5
5	2	4	3	1
2	5	1	4	3
1	3	2	5	4
3	4	5	1	2

a+b+1=5+5+1=11.

Doğru cavab: 11

A variantı 72 saylı test tapşırığı
B variantı 57 saylı test tapşırığı
C variantı 60 saylı test tapşırığı
D variantı 69 saylı test tapşırığı

Qanunauyğunluğu müəyyən edin və "?" əvəzinə uyğun olan variantı seçin.

	24	27	26	27	*a*	
11	13	14	12	15	18	
3	8	5	9	3	*b*	6

$a - b = ?$

A) 19 B) 28 C) 23 D) 25 E) 21

İzah:

	24	27	26	27	*a*	
11	13	14	12	15	18	
3	8	5	9	3	*b*	6

11+13=24, 13+14=27, 14+12=26, 15+18=a=33
8+3=11, 5+8=13, 9+5=14, 3+9=12, b+3=15, b=12.
6+b=18, b=12. a-b=33-12=21.

Doğru cavab:21

A variantı 73 saylı test tapşırığı
B variantı 74 saylı test tapşırığı
C variantı 80 saylı test tapşırığı
D variantı 48 saylı test tapşırığı

Qanunauyğunluğu müəyyən edin və "?" əvəzinə uyğun olan variantı seçin.



A) 8; 15; 9; 25 B) 25; 9; 15; 36 C) 25; 9; 16; 9
D) 16; 9; 25; 9 E) 15; 8; 9; 25

İzah: Oxdan sağdakı 1-ci ədəd soldakı fiqurların tərəfləri saylarının hasilidir. 4x3=13, 3x6=18, 3x5=15.
Oxdan sağdakı 2-ci ədəd soldakı fiqurların tərəfləri saylarının cəmidir. 4+3=7, 3+6=9, 3+5=8.
Oxdan sağdakı 3-cü ədəd soldakı kiçik fiqurun tərəfləri sayının kvadratıdır. 4^2=16, 3^2=9, 3^2=9.
Oxdan sağdakı 4-cü ədəd soldakı böyük fiqurun tərəfləri sayının kvadratıdır. 3^2=9, 6^2=36, 5^2=25.

Doğru cavab: 15; 8; 9; 25

A variantı 74 saylı test tapşırığı
B variantı 68 saylı test tapşırığı
C variantı 72 saylı test tapşırığı
D variantı 71 saylı test tapşırığı

Qanunauyğunluğu müəyyən edin və "?" işarəsinin yerinə uyğun variantı seçin.



İzah: Hər bir sətir və hər bir sütunda beşguşəli ulduzlardan biri ağ, ikincisi qara, üçüncüsü isə boz rənglənib, ləçəklərin rənglənməsi 2-3-2-3-2-3 ləçəyin rənglənməsi kimi növbələnir. Düyməcik isə sətir üzrə 1-ci addımda saat əqrəbinin hərəkəti istiqamətdə 2 ləçəyi, 2-ci addımda 4 ləçəyi adlayır.

Doğru cavab:

A variantı 75 saylı test tapşırığı
B variantı 53 saylı test tapşırığı
C variantı 47 saylı test tapşırığı
D variantı 1 saylı test tapşırığı

Qanunauyğunluğu müəyyən edin və "?" əvəzinə uyğun olan variantı seçin.

316 (106) 528
437 (102) 641
541 (?) 783
284 (109) 502

A) 121 B) 97 C) 144 D) 212 E) 200

İzah: (528-316):2=106
(641-437):2=102
(783-541):2=121
(502-284):2=109

Doğru cavab: 121

A variantı 76 saylı test tapşırığı
B variantı 46 saylı test tapşırığı
C variantı 79 saylı test tapşırığı
D variantı 63 saylı test tapşırığı

Anar, Kamal, Rasim, Samir və Elnur bir avtomobildə gedirlər. Onlar müxtəlif peşələrin sahibləridir: müəllim, karateçi, rəqqas, proqramçı və basketbolçu. Sükan arxasında müəllim, onun yanında isə Kamal oturub. Samir arxada Rasim ilə basketbolçunun arasında oturub. Karateçi olan Samirlə qonşuluqda yaşayır. Elnur basketbolçunu uşaqlıqdan tanıyır. Samir və Kamal rəqs edə bilmirlər.

Karateçi kimdir?

A) Rasim B) Samir C) Kamal
D) Anar E) Elnur

İzah:

Müəllim Elnur		Karateçi Kamal
Basketbolçu Anar	Proqramçı Samir	Rəqqas Rasim

Müəllim Elnur		Karateşi Kamal
Rəqqas Rasim	Proqramçı Samir	Basketbolçu Anar

Doğru cavab: Kamal

A variantı 77 saylı test tapşırığı
B variantı 84 saylı test tapşırığı
C variantı 46 saylı test tapşırığı
D variantı 50 saylı test tapşırığı

Rasim yolun yarısını və 1 kilometr getdikdən sonra ona yolun $\frac{1}{3}$ hissəsini və daha 1 kilometr getmək qaldı. Yolun yarısı yolun $\frac{1}{3}$ hissəsindən neçə kilometr çoxdur?

A) 2,5 B) 3 C) 1 D) 1,5 E) 2

İzah: Yolun uzunluğunu L ilə işarə etsək, tapşırığın şərtinə görə
L = L/2+1+L/3+1 bərabərliyini alarıq.
L=5L/6+2, L/6=2, L=12 km.
Yolun yarısı (12/2=6) yolun 1/3-dən (12/3=4) 2 km çoxdur.
Doğru cavab: 2

A variantı 78 saylı test tapşırığı
B variantı 47 saylı test tapşırığı
C variantı 75 saylı test tapşırığı
D variantı 77 saylı test tapşırığı

Hərf sırası pozulmuş beş sözdən dördü müəyyən əlamətə görə oxşardır. Hərflərin sırasını düzəldərək fərqli sözü tapın.

A) p r e m a t r m e B) p s a m k o
C) p e s i m d o r t D) o m e r a b t r
E) r e s t e n n

İzah: Hərflərin sırasını bərpa etdikdə sentner, barometr, spidometr, kompas, ampermetr alınır.
Digərlərindən fərqli olaraq sentner cihaz deyil.
Doğru cavab: r e s t e n n.

A variantı 79 saylı test tapşırığı
B variantı 75 saylı test tapşırığı
C variantı 59 saylı test tapşırığı
D variantı 54 saylı test tapşırığı

Cavab variantlarındakı 5 sözdən 4-ü arasında məntiqi əlaqə var. Bu məntiqi əlaqəyə tabe ***olmayan*** sözü müəyyən edin.

A) bitkoin B) dollar C) lari D) rial E) təngə

İzah: Bitkoin kriptovalyutadır, digərləri isə adi valyutadır.
Doğru cavab: bitkoin

A variantı 80 saylı test tapşırığı
B variantı 78 saylı test tapşırığı
C variantı 67 saylı test tapşırığı
D variantı 56 saylı test tapşırığı

"?" əvəzinə hansı ədəd yazılmalıdır?
E, M, S fərqli rəqəmlərdir.

```
 MS | S
 S  |--
----| 1S
 ES
 ES
----
 0
```

min(S)+max(S)=?

A) 9 B) 10 C) 11 D) 13 E) 12

İzah: SxS=ES eyniliyinə əsasən S rəqəmi {0, 1, 2, 3, 4, 7, 8, 9} çoxluğuna aid deyil, yəni 5 və ya 6-dır.
min(S)+max(S)=5+6=11.
Doğru cavab: 11

A variantı 81 saylı test tapşırığı
B variantı 62 saylı test tapşırığı
C variantı 51 saylı test tapşırığı
D variantı 58 saylı test tapşırığı

Sıradakı 12 fiqurdan hansıları qanunauyğunluğu pozur?



A) 4, 5 B) 2, 3 C) 1, 4 D) 1, 3 E) 2, 5

İzah: 12 fiqurdan ibarət sırada 2 və 3 nömrəli şəkillərə oxşayanlardan başqa digərlərinə simmetrik olanlar vardır.
Doğru cavab: 2, 3

A variantı 82 saylı test tapşırığı
B variantı 69 saylı test tapşırığı
C variantı 54 saylı test tapşırığı
D variantı 80 saylı test tapşırığı

“ ? “ əvəzinə uyğun olan variantı tapın.



İzah:



Doğru cavab:



A variantı 83 saylı test tapşırığı
B variantı 64 saylı test tapşırığı
C variantı 74 saylı test tapşırığı
D variantı 55 saylı test tapşırığı

Verilən açılışa uyğun ***olmayan*** kubları seçin.



1 2 3 4 5

A) 1, 4 B) 2, 5 C) 2, 4 D) 3, 4 E) 3, 5

İzah: Kubun açılışından məlum olur ki, C hərfinin yuxarısında A , B hərfinin solunda isə 3 ədədi yerləşir. 2-ci və 4-cü şəkillərdə bu vəziyyət müşahidə olunmur.
Doğru cavab: 2, 4

A variantı 84 saylı test tapşırığı
B variantı 72 saylı test tapşırığı
C variantı 56 saylı test tapşırığı
D variantı 70 saylı test tapşırığı

Eyni rəqəmlərin eyni, fərqli rəqəmlərin isə fərqli hərfləri şifrlədiyini bilərək, DAKAR sözünə uyğun şifri tapın.

$$\left\{\begin{matrix}856\\896\\717\\396\\827\end{matrix}\right\} \Leftrightarrow \left\{\begin{matrix}TUT\\AND\\AKT\\ORD\\ARD\end{matrix}\right\} \Rightarrow \text{DAKAR} \Leftrightarrow ?$$

A) 68589 B) 68285 C) 68289
D) 68281 E) 68189

İzah: D-6, A-8, K-2, T-7, U-1, N-5, O-3, R-9
DAKAR-68269
Doğru cavab: 68269

85 – 87 saylı tapşırıqları
aşağıdakı mətnə əsasən yerinə yetirin.

7 ölkəni (Azərbaycan, Gürcüstan, Fransa, İtaliya, Almaniya, Rusiya, Türkiyə) təmsil edən 1986, 1989, 1991, 1996, 1998 və 2000-ci il təvəllüdlü, 65, 70, 75, 80, 85 və 90 kq çəkiyə malik 8 idmançı (A, B, C, D, E, F, G, H) haqqında aşağıdakılar məlumdur:

- 65 kq çəkisi olan idmançılar A və B-dir;
- ən gənc idmançı – İtaliyanı təmsil edən D və ondan 9 yaş böyük olan Almaniya təmsilçisi E 75 kq çəkiyə malikdirlər;
- Azərbaycan təmsilçisi A 1991-ci ildə anadan olub;
- Rusiya təmsilçiləri F və G-nin doğulduqları ili göstərən ədədlər eyni rəqəmlərdən təşkil olunub;
- 70 kq çəkiyə malik Fransa təmsilçisi C 1989-cu ildə anadan olub;
- ən ağır çəkili idmançı Türkiyə təmsilçisi H-dır.

A variantı 85 saylı test tapşırığı
B variantı 85 saylı test tapşırığı
C variantı 85 saylı test tapşırığı
D variantı 85 saylı test tapşırığı

Aşağıdakılardan hansı mütləq doğrudur?

A) Gürcüstan təmsilçisi Rusiya təmsilçilərindən ağır çəkilidir.
B) 1996-cı il təvəllüdlü idmançı C-dən ağır çəkilidir.
C) F-in çəkisi G-dən azdır.
D) B H-dən 10 yaş böyükdür.
E) Fransa təmsilçisi Almaniya təmsilçisindən yaşca böyükdür.

İzah:

Təvəllüd	Ölkə	Ad	Çəki
1991	Azərbaycan	A	65
1986 1996	Gürcüstan	B	65
1989	Fransa	C	70
2000	İtaliya	D	75
1991	Almaniya	E	75
1989 1998	Rusiya	FG	80
1989 1998	Rusiya	GF	85
1986 1996	Türkiyə	H	90

Doğru cavab: Fransa təmsilçisi Almaniya təmsilçisindən yaşca böyükdür.

A variantı 86 saylı test tapşırığı
B variantı 86 saylı test tapşırığı
C variantı 87 saylı test tapşırığı
D variantı 87 saylı test tapşırığı

Hansı idmançılar yaşıddırlar?

A) B və C B) B və E C) E və H
D) C və H E) A və E

İzah:

Təvəllüd	Ölkə	Ad	Çəki
1991	Azərbaycan	A	65
1986 1996	Gürcüstan	B	65
1989	Fransa	C	70
2000	İtaliya	D	75
1991	Almaniya	E	75
1989 1998	Rusiya	FG	80
1989 1998	Rusiya	GF	85
1986 1996	Türkiyə	H	90

Doğru cavab: A və E

A variantı 87 saylı test tapşırığı
B variantı 87 saylı test tapşırığı
C variantı 86 saylı test tapşırığı
D variantı 86 saylı test tapşırığı

Aşağıdakılardan hansı(ları)nı müəyyən etmək mümkündür?

I. B-nin təmsil etdiyi ölkəni;
II. H-ın yaşını;
III. G-nin çəkisini.

A) yalnız III B) yalnız I C) I və II
D) I və III E) II və III

İzah:

Təvəllüd	Ölkə	Ad	Çəki
1991	Azərbaycan	A	65
1986 1996	Gürcüstan	B	65
1989	Fransa	C	70
2000	İtaliya	D	75
1991	Almaniya	E	75
1989 1998	Rusiya	FG	80
1989 1998	Rusiya	GF	85
1986 1996	Türkiyə	H	90

Doğru cavab: yalnız I

88 – 90 saylı tapşırıqları
verilənlərə əsasən yerinə yetirin.

Doqquz fərqli fiqurun hərəsinin çəkisi 1-dən 9-a qədər olan natural ədədlərdən birinə (hərəsi fərqli bir ədədə) uyğundur.
Qeyd: fiqurlardan biri tərəzilərdə yoxdur.



A variantı 88 saylı test tapşırığı
B variantı 89 saylı test tapşırığı
C variantı 88 saylı test tapşırığı
D variantı 89 saylı test tapşırığı

Hansı ədədi ifadə edən fiqur tərəzilərdə yoxdur?
A) 7 B) 6 C) 4 D) 5 E) 8

İzah: 3 7 1 8 4 6 9 5 2

(12+8+5)+(3x6+7)=50 15x0+12x1+6x2+ 27=51 24< 27 50< 51
Doğru cavab: 8

A variantı 89 saylı test tapşırığı
B variantı 90 saylı test tapşırığı
C variantı 90 saylı test tapşırığı
D variantı 88 saylı test tapşırığı

Hansı halda şəkildəki tərəzilərin vəziyyəti dəyişməyəcək?
A) ● fiqurlarından ikisini bir □ fiquru ilə əvəz etdikdə
B) ○ fiqurlarından birini ▲ fiquru ilə, ■ fiqurlarından birini ● fiquru ilə əvəz etdikdə
C) ○ fiqurlarından birini ▲ fiquru ilə, ● fiqurlarından birini ◎ fiquru ilə əvəz etdikdə
D) ○ fiqurlarından birini ■ fiquru ilə, ● fiqurlarından birini ■ fiquru ilə əvəz etdikdə
E) ● fiqurlarından üçünü bir △ fiquru ilə əvəz etdikdə

İzah: 3 7 1 8 4 6 9 5 2

(12+8+5)+(3x6+7)=50 15x0+12x1+6x2+ 27=51 24< 27 50< 51

Doğru cavab: ● fiqurlarından ikisini bir □ fiquru ilə əvəz etdikdə

A variantı 90 saylı test tapşırığı
B variantı 88 saylı test tapşırığı
C variantı 89 saylı test tapşırığı
D variantı 90 saylı test tapşırığı

○ fiquru hansı ədədi ifadə edir?

A) 9 B) 7 C) 6 D) 8 E) 5

İzah: 3 7 1 8 4 6 9 5 2

(12+8+5)+(3x6+7)=50 15x0+12x1+6x2+ 27=51 24< 27 50< 51

Doğru cavab: 9

A variantı 91 saylı test tapşırığı
B variantı 93 saylı test tapşırığı
C variantı 91 saylı test tapşırığı
D variantı 93 saylı test tapşırığı

"?" əvəzinə hansı ədəd yazılmalıdır?

A, B, C, E, F – bir-birindən və sıfırdan fərqli rəqəmlərdir.

$$\begin{array}{r|l} _\,A6262 & EF \\ \underline{6C} & \underline{} \\ _\,C2 & 22FE \\ \underline{6C} & \\ _\,BF6 & \\ \underline{BE6} & \\ _\,B02 & \\ \underline{B02} & \\ 0 & \end{array}$$

$A+B+C+E+F=?$

$$\begin{array}{r|l} _\,76262 & 34 \\ \underline{68} & \underline{} \\ _\,82 & 2243 \\ \underline{68} & \\ _\,146 & \\ \underline{146} & \\ _\,102 & \\ \underline{102} & \\ 0 & \end{array}$$

İzah:

A=7; B=1; C=8; E=3; F=4

Doğru cavab: 23

A variantı 92 saylı test tapşırığı
B variantı 92 saylı test tapşırığı
C variantı 92 saylı test tapşırığı
D variantı 92 saylı test tapşırığı

Yaxın mənalı sözlərin hamısını seçin.

1. nikbin
2. ayrılıq
3. nisgil
4. hicran
5. fəraq

İzah: Nikbin — həyatdan razı, şən
Ayrılıq — hicran, fəraq
Nisgil — ürəkdə çəkilən qüssə, dərd
Hicran — ayrılıq, fəraq
Fəraq — ayrılıq, hicran.

Doğru cavab: ayrılıq, hicran, fəraq

A variantı 93 saylı test tapşırığı
B variantı 91 saylı test tapşırığı
C variantı 93 saylı test tapşırığı
D variantı 91 saylı test tapşırığı

Kakuroda ağ rəngli xanaların əmələ gətirdiyi hər bir sətir və sütunda yazılacaq ədədlərin cəmi uyğun olaraq sətir və sütundan əvvəl yerləşən rəngli üçbucaqlardakı ədədlərə bərabərdir. Yazılacaq ədədlər birrəqəmli olmalı, sətir və ya sütun üzrə təkrarlanmamalı və onların arasında "0" olmamalıdır.
Hərflərin yerləşdiyi xanalara yazılacaq ədədləri taparaq "?" işarəsinin yerinə uyğun ədədi müəyyən edin.



B+O+R+A+N=?



İzah:
A=(4+6+7+16)-(3+6+13)=33-22=11.
B=1, R=1, O=1, N=9.
?= B+O+R+A+N)=1+1+1+11+9)=23.
Doğru cavab: 23

A variantı 94 saylı test tapşırığı
B variantı 94 saylı test tapşırığı
C variantı 94 saylı test tapşırığı
D variantı 94 saylı test tapşırığı

Kompüter mağazasında gün ərzində fərqli modellərdən (“Acer”, “HP”, “Dell”, “Toshiba”) olan, 2, 4, 8, 16 GB operativ yaddaşa malik 4 kompüter satıldı. Sənan, Babək, Aydın və Aytənin aldığı bu kompüterlərin mağazada qiymətləri 400, 560, 600 və 680 manat idi. Məlumdur ki:

- ən baha qiymətə satılan kompüterin – Aydının aldığı “Dell”in operativ yaddaşı 8 GB deyil;
- modelinin adı ilə alıcısının adı eyni hərflə başlayan kompüterin operativ yaddaşı ən az olmasa da, “Dell”in və 600 manata Sənanın aldığı kompüterin operativ yaddaşından azdır;
- Babəkin aldığı “HP”nin qiyməti gün ərzində satılan kompüterlərin orta qiymətinə bərabərdir.

“Acer”, “HP”, “Dell”, “Toshiba” kompüterlərinin kodlarını onların qiymətlərinin artması ardıcıllığı ilə sıralayın.

Kompüterlər	**Kodlar**
“Acer”	1
“HP”	2
“Dell”	3
“Toshiba”	4

İzah:

Kompüter	Yaddaş	**Alıcı**	**Qiymət**
“Acer”	4	Aytən	400
“HP”	2	Babək	560
“Dell”	16	Aydın	680
“Toshiba”	8	Sənan	600

Doğru cavab: 1, 2, 4, 3

A variantı 95 saylı test tapşırığı
B variantı 95 saylı test tapşırığı
C variantı 95 saylı test tapşırığı
D variantı 95 saylı test tapşırığı

Doqquz fərqli fiqurun hərəsinin çəkisi 1-dən 9-a qədər olan natural ədədlərdən birinə (hərəsi fərqli bir ədədə) uyğundur. Tərəzilərin vəziyyətlərini nəzərə alaraq fiqurların ifadə etdiyi ədədləri müəyyən edin və uyğunluq qurun. Qeyd: fiqurlardan biri tərəzilərdə yoxdur.



1. 
2. 
3.

a. 4
b. 7
c. 8
d. 9
e. 11

İzah:

Doğru cavab: 1 – e; 2 – c; 3 – b